QARABAĞ AZƏRBAYCANDIR!

## "Şəhidlər başımızı dik, alnımızı ağ elədilər"



6

SƏS
№ 178 (6619) 30 sentyabr 2022-ci il. Qiyməti 60 qəpik

3



# LAÇIN:

## İki il öncə və bu gün...

# 2023-cü il Azərbaycanda "Heydər Əliyev İli" elan edilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda 2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olduğu qeyd edilir.



2

## Rusiyalı ekspert: "Qərbin dəstəyi Ermənistana kömək etməyəcək"



15

Tanınmış rusiyalı ekspert, Rusiya Elmlər Akademiyasının Primakov adına Dünya İqtisadiyyatı və Beynəlxalq Münasibətlər İnstitutunun (İMEMO) Postsovet Araşdırmaları Mərkəzinin baş elmi işçisi, tarix elmləri namizədi Stanislav Pritçin "Caliber" analitik mərkəzinə...

## Bütün növ pensiyalarda artımlar olacaq



10

## 44 günlük Vətən müharibəsi: Tərtər terroru



4

## ABŞ-ın "canfəşanlığı" - bəs məqsədi nədir?



14



9

## Sosial şəbəkələrdən biznes kimi istifadə etmək olar?

## Psixoloji şiddət, yoxsa qısqanclıq?



12

## Alla Puqaçova Rusiyanı tərk etdi



13

# 2023-cü il Azərbaycanda "Heydər Əliyev İli" elan edilib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda 2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olduğu qeyd edilir.**

Vurğulanır ki, Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətind? atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir.

Bildirilir ki, böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir.

Qeyd olunur ki, zamanın hökmü ilə ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdır. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.

"Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövl?tçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu Öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir. Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilmiş və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilmişdir. Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur.

Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.

Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı - Milli Qurtuluş Günü kimi qeyd edir.

Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir", - deyə Sərəncamda bildirilir. Sərəncama əsasən, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək tapşırılıb.



## "4000 nəfərə yaxın Azərbaycan vətəndaşı müharibədə itkin düşüb"

### Prezident İlham Əliyev Fransa Prezidenti Kabinetinin müşavirini qəbul edib

**Prezident İlham Əliyev sentyabrın 29-da Fransa Prezidenti Kabinetinin kontinental Avropa və Türkiyə üzrə müşaviri xanım İzabel Dümonu qəbul edib. Görüşdə Fransa Prezidenti Emmanuel Makronla Azərbaycan Prezidenti İlham Əliyev arasında son dövrlərdə telefon danışıqları əsnasında aparılmış müzakirələr və konstruktiv dialoq qeyd olunub.**

Söhbət zamanı Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsi üzrə danışıqlar prosesi, sərhədlərin delimitasiyası və kommunikasiyaların açılması məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Prezident İlham Əliyev Azərbaycanın üzləşdiyi mina problemi və Birinci Ermənistan-Azərbaycan müharibəsindən etibarən 4000 nəfərə yaxın Azərbaycan vətəndaşının itkin düşmüş hesab edildiyini vurğulayıb. Bu məsələlərin həllinin vacibliyi qeyd edilib. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər, o cümlədən Azərbaycan-Fransa ikitərəfli əməkdaşlıq məsələləri müzakirə olunub.

# LAÇIN:

## İki il öncə və bu gün...

27 sentyabr... İki il öncə Ermənistanın ölkəmizə qarşı təxribatlarına son qoyulması və işğal altında olan torpaqlarımızın geri alınması üçün İkinci Vətən Müharibəsinin başlandığı gün. Həmin günə qədər 30 il işğal altında olan torpaqlarımızdan biri də Laçın idi. 30 ilin əvvəlində - 18 may 1992-ci ildə silahsız, top-tüfəngsiz, təchizatsız ordumuzun mərd, igid oğullarının öz güclərinə mübarizəsinə baxmayaraq əlindən alınan Laçın. Əhalisi silah gücü ilə evindən-eşiyindən çıxarılan, öldürülən, ata-baba ocağından qovulan Laçın. 30 il nisgildən bağrı qan olan, fəryadı dağına-daşına sirdaş olan Laçın.

İki il öncəyədək yaslı, qara yaylıqlı idi Laçınımız. Doğmalarının yolunu gözləyirdi. Günlərin bir günü azad olunacağını gözləyirdi. Və iki il öncə həmin zaman gəlib çatmışdı. 1990-cı illərdə Laçının işğal olunduğu vaxtdan fərqli olaraq ötən illərdə inkişaf edən iqtisadiyyatımız hesabına güclənən ordumuz Laçını azad etməyə yollanmışdı. Bax, zaman belə yetişmişdi. 2020-ci ilin 44 günlük payızında işğaldan azad olunmuş torpaqlarımızın ardınca Laçın da azad oldu. 10 noyabrda Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış birgə Bəyanatla dekabr ayının 1-də Laçın 30 ildən sonra anası Azərbaycana qovuşdu. Bu müjdəli xəbəri də ölkəmizin başçısı, Ali Baş Komandanımız cənab İlham Əliyevdən aldıq: "Böyük sevinc hissi ilə bildirirəm ki, Laçın rayonu işğaldan azad olundu. Bütün Azərbaycan xalqını bu münasibətlə ürəkdən təbrik edirəm. Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir. Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq. Düşməni buna məcbur etdik. Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz - Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq". Azadlığından dərhal sonra Laçında quruculuq, abadlıq işlərinə başlanıldı. Çünki Laçın çox strateji bölgədə yerləşir və o, Qarabağın digər bölgələrinin də abadlaşdırılması, soydaşlarımızın yaxın gələcəkdə evlərinə qayıtmaları üçün böyük əhəmiyyətə malikdir.

### Bu gün Laçında dalğalanan üçrəngli bayrağımız Zəfərimizin rəmzidir

Laçın da 30 il işğal altında qalan torpaqlarımızın hər biri kimi, üçrəngli Azərbaycan bayrağını heç doyunca köksünə sıxa bilməmişdi. Çünki 90-cı illərdə müstəqilliyimizin bərpasından sonra işğal olunan bu yurdlarımız bayrağımızı görməyə macal tapmamışdı. Sovet rejiminin Azərbaycan bayrağı etdiyi bayraqla işğal olunmuş və o vaxt-bu vaxt bayrağımızın sorağını almaq üçün gözləri yollara dikilmişdi. Laçın oğullarını, o oğulların gətirəcəyi üçrəngli bayrağımızı gözləyirdi. Və belə də oldu. Laçın da azadlığına qovuşdu. İllərin kədərini, nisgilini atdı yaxasından. Ali Baş Komandanımızın və Milli Ordumuzun ona bəxş etdiyi azadlıqla yeni həyata qədəm qoydu. Abadlaşdırılmağa, dirçəldilməyə başladı.

Sentyabrın 21-də Prezident İlham Əliyevin Laçın şəhərində Azərbaycan Bayrağını ucaltması xalqımıza növbəti qürur hissini bəxş etdi. Həmin gün Laçının işğaldan azad olunduğu günün sevincini eynilə təkrar yaşadıq. Qürur duyduq, fəxr etdik. Dövlətimizin başçısı: Bu, tarixi hadisədir. Laçın şəhərinin azad edilməsi həmişə tarixdə qalacaq. Bu gün Laçın şəhərində, şəhərin mərkəzində, mərkəzi küçədə Azərbaycan Bayrağını qaldırmışam. Bu bayraq burada əbədi dalğalanacaqdır.

Laçın şəhəri bütün Laçın rayonu kimi, işğal altında olmuş bütün başqa yaşayış məntəqələri kimi erməni vandalizminə məruz qalmışdır. Erməni vandalizminin izləri hər bir kənddə, hər bir şəhərdə var. Ağdam şəhəri tamamilə yerlə-yeksan edilib, Füzuli şəhəri də, həmçinin Cəbrayıl şəhəri də, bütün kəndlər. Bəzi yerlərdə, o cümlədən Laçın şəhərində ermənilər qanunsuz məskunlaşma aparmışdılar, Ermənistandan və daha çox xaricdən - Suriya və Livandan erməni əsilli insanları gətirib burada qanunsuz yerləşdirmişdilər. Bu, hərbi cinayətdir, bütün beynəlxalq konvensiyalarda hərbi cinayət kimi təsbit edilir və bu cinayət dünya ictimaiyyətinin gözü qarşısında baş vermişdir...

Laçın rayonunun və Laçın şəhərinin işğaldan azad edilməsi, bir daha demək istəyirəm ki, tarixi hadisədir. Bizim bütün şanlı Vətən müharibəmiz şanlı tariximizdir. Ancaq xüsusi strateji əhəmiyyətini, çətin relyefi, ağır, soyuq iqlimi nəzərə alsaq, Laçın və Kəlbəcər rayonlarının azad edilməsi xüsusi əhəmiyyət kəsb edir. Laçın və Kəlbəcər rayonları 1990-cı illərin əvvəllərində işğal edilərkən faktiki olaraq Ermənistanla Qarabağ arasında coğrafi bağlantı yaradılmışdı. Laçın rayonu 1992-ci il mayın 18-də, Kəlbəcər rayonu 1993-cü il aprelin əvvəlində işğal altına düşmüşdü və beləliklə, ermənilər öz arzularına çatmışdılar. Onlar hesab edirdilər ki, bu torpaqlarda əbədi yaşayacaqlar. Hesab edirdilər ki, buna nail olacaqlar. Görürdülər ki, onlara himayədarlıq edən bir neçə ölkə, onların cinayətlərinə göz yuman, bu məsələ ilə bilavasitə məşğul olan təşkilat buna biganə qaldı. Sanki onlara bəraət qazandırırdılar və daha da azğınlaşırdılar. İşğalın ilkin mərhələsində bizim bütün yaşayış məntəqələrimizi dağıtmışdılar. Ancaq sonra hiss etdilər ki, artıq bunların cinayəti cəzasız qalır, burada qanunsuz inşaat işlərinə başladılar, o cümlədən Laçın şəhərində, o cümlədən Zabux və Sus kəndlərində.



Onu da bildirməliyəm ki, 26 avqust tarixində Laçın şəhəri ilə birlikdə Zabux və Sus kəndləri də işğalçılardan azad edilmişdir. Yəni, bütün bu tarixi biz heç vaxt unutmamalıyıq. Biz şəhidlərimizin canı, qanı bahasına, qəhrəman əsgər və zabitlərimizin fədakarlığı sayəsində bu gün bu torpaqlardayıq. Heç kim bu torpaqları bizə bağışlamayıb, heç kim bu torpaqları bizə danışıqlar yolu ilə qaytarmayıb. Beynəlxalq təşkilatlar, o cümlədən BMT, onun Təhlükəsizlik Şurası, ATƏT işğalçı dövləti məcbur edib buradan çıxarmalı idi. Ermənistana qarşı sanksiyalar tətbiq edilməli idi. Bunların heç biri görülmədi. Əksinə, bu işğalı əbədiləşdirmək üçün Ermənistan, dünya erməniliyi və onların xaricdəki havadarları birləşərək bu çirkin niyyəti həyata keçirmək istəyirdilər. Mən isə həmişə deyirdim ki, Azərbaycan xalqı buna heç vaxt razı olmayacaq. Həmişə deyirdim ki, məsələ sülh yolu ilə həll olunmasa, bunu hərb yolu ilə həll edəcəyik və etdik.

Cəmi 44 gün ərzində Ermənistan ordusunu darmadağın etdik. Alınmaz qala sayılan Şuşanı azad etdik. Cəbrayılı, Füzulini, Zəngilanı, Qubadlını, Hadrutu, Xocavəndi döyüş meydanında azad etdik. Düşmən diz çökdü və Laçını, Kəlbəcəri, Ağdamı tərk etməyə məcbur oldu. Bu gün Laçın şəhərində olarkən haqlı olaraq qürur hissi keçirirəm ki, qədim Azərbaycan torpağında bizim üçrəngli Bayrağımız dalğalanır.

### Kəlbəcər və Laçını birləşdirən yollar

Laçının yollarından başlandı quruculuq işləri. Çünki 30 ildə bu yollar tamamilə yararsız vəziyyətə düşmüşdü. Düşmən bilirdi ki, bu torpaqların sahibləri gələcək və bir gün onları geri alacaq. Bu səbəbdən də rayon və şəhərlərimizi söküb satıbsovmuş, daşı daş üstündə qoymamışdı. Laçına azadlığı kimi, abadlıq bəxş edən dövlətimizin başçısının sərəncamına əsasən tikilən Kəlbəcər-Laçın avtomobil yolu böyük əhəmiyyətə malik olacaqdır. Birinci və ikinci texniki dərəcəyə uyğun tikiləcək yolun uzunluğu 72,8 kilometr, hərəkət hissəsinin eni 9-16 metr olacaq. İki və dörd hərəkət zolaqlı olacaq yol üzərində altkeçidlər və körpü inşa olunacaq, 3 tunelin tikintisi aparılacaq. Tunellərin ümumi uzunluğu 9450 metr olacaq.

### Qarabağ və Şərqi Zəngəzur nura boyanır

Laçın azadlığından dərhal sonra işıqlandırılmağa başlandı. Çünki onun qaranlıqdan çıxmaq zamanı idi. Özü günəşin doğmasına artıq icazə verilmişdi. Biz isə onun elektrik enerjisi təminatını yaxşılaşdırmalı idik. Laçının nura boyanması ötən ilin fevral ayında Güləbirddə Su Elektrik Stansiyasının istifadəyə verilməsi ilə başlandı. Stansiyanın açılışında iştirak edən Prezident İlham Əliyev: "... Laçın rayonu işğaldan azad olunandan heç iki ay keçməmiş - ay yarımdan sonra artıq burada Su Elektrik Stansiyası istismara verilir. Bu Su Elektrik Stansiyasının generasiya gücü 8 meqavatdır. Kiçik su elektrik stansiyaları arasında 8 meqavatlıq stansiya orta həcmli stansiya sayıla bilər. Əsas məsələ ondadır ki, bu stansiya işə düşəndən sonra artıq burada generasiya gücləri yaranır və beləliklə, biz təbiətimizdən - Həkəri çayından səmərəli şəkildə istifadə edəcəyik".

Laçının nura boyanması üçün görülən işlərin davamı 110 kV-luq "Qorçu" elektrik yarımstansiyasıdır. Perspektivdə Laçın dəhlizində 110 kV-luq "Laçın Şəhər" və "Zabux" yarımstansiyalarını tikilməklə, Qorçudan Laçın şəhərinə 110 kV-luq ikidövrəli elektrik verilişi xətti çəkiləcək və Laçın şəhərindən 110 kV-luq yeni xətt çəkilməklə "Şuşa" yarımstansiyası ilə əlaqələndiriləcək.

Ən əsası odur ki, Laçın şəhərindən Güləbird istiqamətində "Qubadlı" yarımstansiyasına ikidövrəli 110 kV-luq elektrik verilişi xətti çəkilməklə enerjisistem üçün mühüm əhəmiyyəti olan və regionun enerji dayanıqlılığını təmin edən dairəvi elektrik təchizat sxemi yaradılacaq. Sentyabrın 21-də Prezident İlham Əliyev "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən Laçın şəhərində inşa ediləcək 110/35/10 kV-luq "Laçın" Qovşaq Yarımstansiyasının təməlqoyma mərasimində iştirak etmişdir.

Bildirilmişdir ki, Laçın şəhərinin və ətraf kəndlərin Azərbaycanın ümumi enerji sisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi üçün şəhərin cənub girişində inşa olunacaq rəqəmsal yarımstansiya Şəhərsalma və Arxitektura Komitəsi ilə razılaşdırılmış layihə üzrə tikiləcək. Ümumi gücü 80 meqavatamper olacaq bu yarımstansiya qovşaq funksiyasını daşıyacaq. Belə ki, Füzulidəki "Şükürbəyli" yarımstansiyasından çıxaraq "Cəbrayıl", "Zəngilan", "Qubadlı" yarımstansiyalarına, oradan isə "Güləbird" Su Elektrik Stansiyası ilə əlaqələnən 110 kV-luq ikidövrəli xətt, "Daşkəsən" yarımstansiyasından "Kəlbəcər" və "Qorçu" yarımstansiyalarına çəkilən 110 kV-luq ikidövrəli xətt, həmçinin "Şükürbəyli" yarımstansiyasından "Füzuli" və "Şuşa" yarımstansiyalarına gətirilən 110 kV-luq ikidövrəli xətt "Laçın" şəhər yarımstansiyası ilə əlaqələndiriləcək. Beləliklə, 44 günlük Vətən müharibəsindən sonra Qarabağda və Şərqi Zəngəzurda tikilən yarımstansiyaların və yeni çəkilən 400 kilometrdən çox yüksəkgərginlikli ikidövrəli xətlərin dairəvi elektrik təchizatı yaradılacaq. Bununla da, işğaldan azad olunmuş ərazilərdəki yüksəkgərginlikli xətlərdən birində qəza baş verərsə, dərhal digər istiqamətdən gələn xətt vasitəsilə oraya gərginlik veriləcək. Bununla da Qarabağda və Şərqi Zəngəzurda enerjinin verilişində fasilə yaranmayacaq.

### Ay Laçın, can Laçın...

Sentyabrın 21-də Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi instaqram səhifəsində Laçından paylaşdığı "Ay Laçın, Can Laçın 21.09.22" adlı video isə həmin günün qüruruna yeni bir rəng qatdı. Qürurumuzu ikiqat artırdı. Dünyada gedən müharibələr fonunda dövlətimizin başçısının iki il öncə düşməndən azad olunan Laçın şəhərini gəzməsi, burada daha hansı işlərin görülməsi üçün layihələrə baxması ölkəmizin qüdrətindən xəbər verirdi.

İki il öncə Laçın azad olunan gün yaşadığımız sevinci, qüruru yenidən yaşadıq həmin gün. Qürur duyduq ki, Laçın azaddır. Qürur duyduq ki, torpaqlarımızı düşməndən azad edən Ali Baş Komandanımız indi də dövlətimizin rəhbəri kimi Laçının yenidən qurulmasını planlaşdırır. Bu video qəlbimizdə Laçına yazılan o məşhur mahnını səsləndirdi. Həqiqətən də gözəlliyi, inkişafı haqq edən Laçın can Laçınımız, canımızın qurban olduğu Laçınımızdır. Onu bizə bəxş edən və bu gün yenidən qurub-yaradan dövlətimizin başçısı isə bizim əbədi rəhbərimiz, "dəmir yumruğ"u ətrafında birləşdiyimiz əbədi liderimizdir.

***Mətanət Məmmədova***













# 44 günlük Vətən müharibəsi: Tərtər terroru

2020-ci il, tarixin bu günü. Erməni silahlı qüvvələrinin artilleriya atəşi nəticəsində Tərtərin Qazyan kəndində mülki sakinlərin evlərinə ciddi ziyan dəydi, infrastruktur sıradan çıxdı. Məqsədli şəkildə mülki əhalini hədəf alan düşmən sentyabrın 30-da səhər saat 08.00-dan etibarən, Tərtər şəhərini artilleriya atəşinə tutur. Əlbəttə ki, cəbhə boyunca erməni silahlıları tərəfindən təxribatlar davam edir və Azərbaycan ordusunun hərbçiləri tərəfindən düşmənə layiqli cavab verilirdi. Erməni hərbçilərinin artilleriya atəşinin növbəti hədəfi Tərtərin Seydimli kəndi olub. Düşmənin silahlı qüvvələri əhalinin kompakt olduğu məntəqələri - rayon və kənd mərkəzlərini, mülki infrastruktur obyektlərini - yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri ağır artilleriya qurğularından intensiv atəşə tutmaqda davam edirdi.

Tərtər şəhərini intensiv atəşə tutması nəticəsində 7 nəfər mülki şəxs müxtəlif dərəcəli bədən xəsarətləri alaraq, xəstəxanalara yerləşdirildi, o cümlədən mülki infrastruktur obyektlərə külli miqdarda ziyan vuruldu. Qeyd edək ki, düşmənin silahlı qüvvələrinin dinc Azərbaycan əhalisinin sıx yaşadığı əraziləri növbəti dəfə ağır artilleriyadan atəşə tutması nəticəsində həmin tarixə qədər mülki əhalidən ümumilikdə 12 nəfər həlak olmuş, 35 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilmişdi. Təcavüzkar Ermənistanın mülki obyektləri atəşə tutması nəticəsində 66 yaşayış evi, 8 mülki obyekt yararsız vəziyyətə düşmüş, çoxsaylı xırda və iribuynuzlu heyvanlar tələf olmuşdu. Ölkəmizin hər yerində olduğu kimi, Lerikdə də sentyabrın 27-dən Ermənistan silahlı qüvvələrinin dinc sakinləri məqsədyönlü şəkildə atəşə tuturdu. Daha sonrakı günlərdə Azərbaycanın ikinci böyük şəhəri, çoxsaylı tarixi və mədəni abidələri olan qədim Gəncə, ərazilərində strateji obyektlər yerləşən və keçən Mingəçevir (Su Elektrik Stansiyası) və Yevlax (Bakı-Tbilisi-Ceyhan neft kəməri) şəhərlərini, Beyləqan, Bərdə, Tərtər, Qəbələ, Goranboy, Ağcabədi, Abşeron, Xızı və digər rayonlarını ballistik raketlər və digər ağır artilleriya qurğularından atəşə tutulmuşdur.

## ”ONLAR TƏYİN EDİLMİŞ ATƏŞKƏS SAATINDAN DÜZ 2 DƏQİQƏ SONRA ATƏŞKƏSİ POZDULAR”

”Bu gün biz özümüzün haqlı olmağımızı döyüş meydanında sübut edirik. Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini həyata keçiririk və beynəlxalq hüququ bərpa edirik”. Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xarici mətbuatlardan birinə verdiyi müsahibəsində bildirmşdir. 1994-cü ildə Azərbaycan və Ermənistan arasında atəşkəs elan olunsa da, ölkəmizin xoşməramlı səylərinə, rəsmi Yerevanı diplomatik vasitələrlə işğalçılıq siyasətindən çəkindirməyə yönələn addımlara baxmayaraq, münaqişə hələ də həll olunmamış qalırdı. 26 il atəşkəs rejimində yaşasaq da, Azərbaycan bu münaqişənin sülh yolu ilə həllinə nail ola bilmədi. Bu müddət ərzində, cəbhədə dəfələrlə atəşkəs rejimi pozulub. İşğalçı Ermənistan beynəlxalq hüququ kobudcasına tapdalayaraq, dünyanın mötəbər beynəlxalq təşkilatlarının qətnamələrinə belə əhəmiyyət verməyib. BMT-nin Təhlükəsizlik Şurası Azərbaycanın işğal olunmuş ərazilərinin azad olunmasını tələb edən dörd müvafiq qətnamə qəbul etsə də beynəlxalq hüququn normalarını kobud şəkildə pozub. Bununla yanaşı, bir çox beynəlxalq təşkilatlar, dünya ölkələri Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal etməsini pisləyiblər və işğalçılıq siyasətindən əl çəkməyə çağırıblar. AŞPA, ATƏT, İslam Konfransı Təşkilatı, NATO-nun Parlament Assambleyası səviyyəsində Ermənistanın işğalçılıq siyasətinə kəskin mənfi münasibət bildirilib. Bu gün Ermənistanın işğalçılıq, anti-Azərbaycan siyasətini davam etdirməsinə baxmayaraq, onun yaşadığı qorxu hissi də danılmazdır. Müharibə getdiyi bir zamanda humanitar atəşkəs elan olunsa da yenidən Ermənistan tərəfi buna məhəl qoymur, hətta mülki əhalini belə hədəf alırdı. Müharibə dövründə humanitar atəşkəs elan olunur və hər birində erməni təcavüzkarları atəşkəs rejimini pozaraq çirkin niyyətlərini ortaya qoymuş olurlar. Cənab Prezident bildirib ki, humanitar mülahizələrə əsaslanan birinci atəşkəsdən sonra 24 saat ərzində Ermənistan atəşkəsi pozdu: ”Özü də



vəhşicəsinə, gecə vaxtı Gəncə şəhərinə ballistik raket atmaqla. Birinci atəşlər nəticəsində 10 nəfər həlak oldu, xeyli insan yaralandı. Sonra onlar daha bir dəfə, yenə gecə vaxtı Gəncəyə zərbə endirdilər. Bu dəfə qurbanların sayı daha çox oldu. Ona görə də biz cavab verməyə məcbur idik”. Azərbaycan Prezidenti ikinci atəşkəsə gəldikdə isə bizdə atəşkəsin Ermənistan tərəfindən pozulmasının xronologiyası olduğunu bildirib: ”Onlar təyin edilmiş atəşkəs saatından düz 2 dəqiqə sonra atəşkəsi pozdular. Saat 8-dən təxminən 3-4 dəqiqə sonra Tərtər şəhərinə yenidən bir neçə mərmi atılıb. Biz buna cavab vermirik. Ümid edirik ki, bu, təsadüfən olub. Lakin əgər bu, davam etsə, təbii ki, biz adekvat cavab verməyə məcbur olacağıq”.

## ”BƏLİ, AZƏRBAYCANLILAR DAĞLIQ QARABAĞA, O CÜMLƏDƏN ŞUŞAYA QAYIDACAQLAR, BAX, ONDA BİZ ÇOX TEZLİKLƏ RAZILIĞA GƏLƏRİK”

Bəli, Ermənistan öz ampulasında qalaraq üçüncü dəfə elan olunan atəşkəsi də pozmuşdur. Ermənistan Ordusu humanitar atəşkəsi kobud şəkildə pozaraq Azərbaycan ərazilərini, mülki vətəndaşları atəşə tutulmaqda təzavüzkar siyasətini davam etdirirdi. Ermənistan Silahlı Qüvvələrinin Bərdə və Tərtər şəhərlərini ”Smerç” raketindən atəşə tutması nəticəsində biri uşaq olmaqla dörd mülki vətəndaş həlak olub, xeyli sayda insan isə yaralanıb. Bu bir daha Ermənistan tərəfinin Azərbaycanın hərbi qüvvələrinə zərbə endirməkdə acizliyini təsdiqləmiş oldu. Müsahibələrinin birində ”Cənab Prezident, sentyabrın axırlarında Sizin hərbi əməliyyatlara başlamağınıza, əslində, nə səbəb olmuşdu? Nə üçün belə oldu?” - sualına Azərbaycan Prezidenti belə cavab vermişdi: ”Bu, siyasi və hərbi xarakterli hadisələrin gedişi ilə bağlıdır. Əsas səbəb ondan ibarətdir ki, Ermənistan danışıqlar prosesini hər vasitə ilə pozmaq istəyirdi. Ermənistanın yeni hökuməti dəfələrlə bəyan etmişdi ki, baza prinsipləri ondan ötrü qəbuledilməzdir, o, işğal edilmiş ərazilərin bircə qarışını belə qaytarmağa hazırlaşmır. Bu isə baza prinsiplərinə ziddir. Baş nazir bəyan edirdi ki, Azərbaycan danışıqları Ermənistan ilə deyil, qondarma ”Dağlıq Qarabağın” rəhbərləri ilə aparmalıdır. Bu, həm bizim üçün, həm də ATƏT-in Minsk qrupu üçün qəbuledilməz idi. Baş nazir, həmçinin bəyan edirdi ki, ”Qarabağ Ermənistandır və nöqtə”. Bununla da o, danışıqlar prosesini tamamilə pozmuş oldu. Son bir ildə praktiki olaraq, danışıqlar aparılmayıb və Ermənistan bunun təqsirini bizim üzərimizə yıxmaq üçün üç dəfə təxribat cəhdi göstərdi - iyul ayında sərhəddə, avqust ayında təxribat qrupu göndərildi və sentyabr ayında bizim dinc şəhərlər atəşə tutuldu”. Onlar yəqin düşünürdülər ki, biz bu dəfə də təmkin göstərəcəyik, - deyən Cənab Prezident bunun belə olmadığını diqqətə çatdırıb: ”Biz onlara elə cavab verdik ki, indi onlar təəssüflənirlər”.

Bu dərs ilə barışmayan ermənilər dinc əhaliyə atəş açaraq mülki insanları qətlə yetirirdilər. Ermənistanın atəşkəsi pozaraq Azərbaycana hücum etməsi və mülki əhalini hədəf alması onların diplomatik həll istəməyən, siyasi müzakirələrdən uzaq niyyətlərinə əsaslanır. Dövlətimizin başçısı dəfələrlə çıxışlarında, eləcə də xarici kütləvi informasiya vasitələrinə müsahibələrində Azərbaycan dövlətinin və xalqının prinsipial mövqeyini qətiyyətlə ifadə edərək ədalətin bərpa olunmasını, işğal edilmiş torpaqlarımızın geri qaytarılmasını bildirmişdi: ”Baza prinsipləri isə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ətrafında yerləşən yeddi rayonun Azərbaycana qaytarılmasını və azərbaycanlı məcburi köçkünlərin Dağlıq Qarabağ ərazisinə, o cümlədən Azərbaycanın qədim Şuşa şəhərinə qayıtmalarını nəzərdə tutur. Prinsip etibarilə bu yanaşmalar BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə əsaslanır, həmin qətnamələr də praktiki olaraq, bunu tələb edir. Lakin Ermənistanın baş naziri deyəndə ki, onlar bircə qarış belə torpağı bizə verməyəcəklər, Ermənistanın müdafiə naziri bəyan edəndə ki, Ermənistan yeni ərazilər uğrunda yeni müharibəyə başlayacaq və bizə qarşı təcavüz həyata keçiriləndə, bu, əlbəttə, konstruktiv yanaşma deyil. O deməlidir ki, bəli, işğal edilmiş ərazilər Azərbaycana qaytarılacaq, bəli, azərbaycanlılar Dağlıq Qarabağa, o cümlədən Şuşaya qayıdacaqlar, bax, onda biz çox tezliklə razılığa gələrik”. Ədalət bərpa olundu və Zəfər çalan Azərbaycan 44 günlük müharibənin keçdiyi tarixi günləri vərəqlədikcə qürurlanırıq. Bu, bizim Azərbaycan tarixinə yazılan qəhrəmanlıq tariximizdir.

***Zümrüd BAYRAMOVA***

# Ölüm Mələkləri - XTQ

**Onlar Azərbaycanın yetişdirdiyi elit hərbçilərdir. Düşməni qorxuya salan və bir çox dağıdıcı əməliyyatları icra edən Azərbaycanın görünməz qəhrəmanları Xüsusi Təyinatlı Qüvvələridir. XTQ havada, suda, quruda ən çətin əməliyyatların öhdəsindən gəlməyə, ən təhlükəli tapşırıqları yerinə yetirməyə hər an hazırdırlar. Onların düşüncəsində "çətindir", "alınmır" "mümkün deyil" sözlərinə yer yoxdur. Bütün verilən tapşırıqları qanları bahasına icra edirlər. Çünki onlar XTQ-dir.**



Qısa zaman ərzində peşəkarlıq səviyyəsinə yüksələrək dünyanın silahlı qüvvələri arasına daxil oldular. Onlar 2-ci Qarabağ müharibəsi zamanı ən çətin dövrün- 21-ci əsrin müharibəsinindən zəfərlə çıxdılar. Məhz bunun nəticəsidir ki, XTQ II Qarabağ müharibəsində erməni əsgərlərin qorxulu yuxusuna çevrilmişdi. Onlarla qarşılaşmağın nə demək olduğunu yaxşı dərk etmişdilər, bilirdilər ki, artıq onlar üçün son saniyələrdir-Ölüm .

Erməni mətbuatında "Yeravan today" kanalına danışan erməni əsgəri deyir: "Azərbaycanın XTQ gəlməsi -ölüm mələyinin gəlməsi kimi idi. Sadəcə 3-4 nəfər XTQ üzvü gizlənən 50 erməni əsgərini vurdu və gəldikdən bir necə saniyə sonra yoxa çıxırdı. Onları gecə ovlayan canavarlara bənzətdik. Onları görən kimsə həyatda qalmadı".

Eyni zamanda, Şuşada yaşananları danışan erməni əsgəri sözlərinin davamında deyir: Onlara yolun qabağında pusu qurmuşduq. Lakin də gördük ki, arxamızdadırlar. Bu vəziyyəti görən erməni əsgərləri və zabitləri bir daha Azərbaycanla müharibə etmək istəmir".

Erməni əsgərinin bu sözləri XTQ-in düşməni nə qədər psixoloji olaraq qorxutduqlarının etirafıdır. Bəs düşmənə qorxu salan bu igidlər hansı şəraitdə yetişdirilir?

## XTQ -nin xronologiyası

* İlk onu qeyd edək ki, xüsusi təyinatlılar dünyanın ən intizamlı, vəzifə yerinə yetirə bilən və çətin hərbi qüvvəsi hesab edilir. Azərbaycanda Xüsusi Təyinatlı Qüvvələr qrupu 1999-cu il aprelin 30-da yaradılıb. Qüvvələrin formalaşmasında I Qarabağ müharibəsi iştirakçısı olmuş zabit və gizirlər iştirak ediblər. Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin formalaşmasında Türkiyə Xüsusi Təyinatlı Qüvvələri rol oynayıb.

* 29 aprel 2015-ci il tarixində quruluşunun 16-cı ildönümü münasibətilə yeni yaradılan xüsusi təyinatlı dəstələrə döyüş bayraqlarının təqdimetmə mərasimi keçirilmişdir.

* 26 iyun 2018-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə keçirilən paradda Xüsusi Təyinatlı Qüvvələrə Hikmət Mirzəyev rəhbərlik etmişdir.

* 20 iyun 2020-ci ildə yeni xüsusi təyinatlı birlik yaradıldı. Həmin il iyulun sonu və avqustun əvvəllərində Azərbaycan ərazisində bir sıra genişmiqyaslı taktiki birgə Azərbaycan-Türkiyə təlimləri keçirildi, ilk mərhələdə Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin bölmələri də iştirak etdi.

* 4 dekabr 2015-ci il tarixində Prezident İlham Əliyevin sərəncamına əsasən Azərbaycanda xüsusi xidmət orqanlarının fəaliyyət səmərəliyini artırmaq məqsədi ilə Xarici Kəşfiyyat Xidməti yaradılmışdır. XKX tabe olan Xüsusi Təyinatlı Qüvvələrin adı Yarasadır. Bu bölmənin komandirlərinin adları belə gizli saxlanılır. "Yarasa" Xüsusi təyinatlı dəstələrinin hərbi qulluqçuları 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünü bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Qubadlı şəhərinin azadlığı uğrunda gedən döyüşlərdə savaşmışdır. 2020-ci ilin 10 dekabr tarixində baş tutan Zəfər paradı zamanı "Yarasa" XTQ mövcudluğu barədə ilk dəfə ictimaiyyətə məlumat verilmişdir. Yarasada eyni Müdafiə Nazirliyinin XTQ-i olan "YAŞMA" kimi ən çətin vəziyyətlərdə xidmət aparmaq üçün xüsusi olaraq yetişdirilib.

* 2016-cı ilin aprelində baş vermiş döyüşlərdə Xüsusi Təyinatlı Qüvvələrin bölmələri iştirak ediblər. Döyüşlər zamanı düşmənin çoxsaylı canlı qüvvəsi və hərbi texnikası məhv edilib.

Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələri olan Yaşmaya seçilmək üçün 6 ay ərzində təşkil olunmuş kurslarda dözümlülük və cəsarət tələb olunur. Bu kursu uğurla bitirən hərbçilər isə "Qırmızı Beret" sertifikatını əldə edir.

Azərbaycana məxsus Xüsusi Təyinatlı qüvvələrin adları belədir:

* Hərbi-dəniz qüvvələrinin Dəniz Əməliyyatları Dəstəsi (NavySEALs)

* Daxili Qoşunların hərbi hissələr üzrə xüsusi təyinatlıları (Pələng, Vaşaq, Kobra, Bəbir, Gürzə və s.)

* Daxili İşlər Nazirliyi Xüsusi təyinatlı polis dəstələri Aslanlar XTPD

* Milli Ordu Kəşfiyyat-Diversiya Dəstələri (hərbi hissə üzərinə)

* Dövlət Təhlükəsizlik Xidməti Qartal XTQ

* Xüsusi Dövlət Mühafizə Xidmətinin xüsusi mühafizə bölüklər

* Daxili qoşunlara məxsus Kobra XTQ

* Dövlət Sərhəd Xidməti XTQ

* Əlahiddə ÜmumQoşun XTQ ( Naxçıvan XTQ)

* Xüsusi Dövlət Mühafizə Xidməti XTQ

* Xarici Kəşfiyyat Xidmətinin Yarasa XTQ

* Müdafiə Nazirliyi YAŞMA XTQ

Xüsusi bilik, bacarıq, istedad və dözümün tələb olunduğu "Yaşma"ya hər hərbçi seçilə bilmir. Azərbaycanın ən güclü qoşun növü sayılan bu quruma daxil olmaq üçün 6 aylıq kursdan keçmək lazımdır. "Yaşma" son texnologiya ilə təchiz olunmuş, hər növ silahdan istifadəni yüksək şəkildə mənimsəmiş, iqlim şəraiti fərq etmədən döyüş tapşırığını bitirmədən geri dönməyən hərbçilərdən ibarətdir. Bu qoşun növü boş yerə Azərbaycanda ən güclü qoşun növü sayılmır. Bəzən onları "adsız qəhrəmanlar" da adlandırırlar. Bəzi məlumatlara görə, bu növ üçün müraciət edən 500 nəfərdən ən yaxşı halda 30-40 nəfər təlimlərdən keçir və seçilir. Onlara ekstrimal şəraitdə təlimlər keçilir, hər cür hava şəraitində qərar verməyi, hərəkət etməyi və hazırlıqlı olmaq öyrədilir. Hətta müxtəlif heyvanların ətini yemək də namizədlərə tapşırılır. Müharibə şəraitində günlərlə çöldə, yaxud şəraitsiz yerlərdə olan hərbçilərin qidalanması üçün bu vacib hesab edilir. Bundan başqa onlardan xarici dil bilgisidə tələb olunur. Odlu silahları və partlayıcıları əhatə edən silah təhsili də alırlar. Azərbaycan Xüsusi Təyinatlı Qüvvələri dünya müdafiə sənayesinin aparıcı şirkətlərinin istehsalı olan müasir silahlar, döyüş vasitələri və texnikalara malikdir.

II Qarabağ Müharibəsi zamanı Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyəti Cəbrayıl şəhərini və ətrafdakı doqquz kəndi işğaldan azad etmişdir. 8 noyabrda Prezident İlham Əliyev Hikmət Mirzəyev "Şuşanın azad edilməsi" münasibətilə təbrik etmişdir. Müharibədəki taktiki qələbələrin bir çoxu Xüsusi Təyinatlı Qüvvələrin yerdəki mövqelərindən hədəf koordinatları təmin edən, şəhərə girən və Ermənistan ordusunu şəhərin mərkəzindən sıxışdıran diversant qrupları sayəsində əldə edilmişdir. Bu müharibə Azərbaycanda ilk dəfə olaraq bütün xüsusi təyinatlı birləşmələrinin aktiv şəkildə istifadə edildiyi müharibə hesab edilmişdir. Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyətindən İkinci Qarabağ Müharibəsində iştirak etmiş 32 nəfər Vətən Müharibəsi Qəhramanı medalı ilə, 2 nəfər "Zəfər" ordeni ilə, 57 nəfər "Qarabağ ordeni" ilə təltif edilmişdir.

## Xarici ölkələrin xüsusi təyinatlıları

Hər bir ölkənin özünəməxsus Xüsusi Təyinatlı Qüvvələri var. Təbii ki, bəzi ölkələr bu baxımdan fərqlənirlər. Həmin ölkələrin bu xüsusi birliyi fəaliyyətinə və prinsipinə görə digərlərindən fərqlənir.

Çinin Xüsusi Təyinatlı Qüvvələri dünyanın ən güclü hərbi birləşməsi hesab edilir. Bəzi məlumatlara görə, onlara 5 illik gizli təlimlər keçirlər. Xüsusi təyinatlı qüvvələrə seçilmək üçün hər şəxs bir neçə il ölkənin polis xidmətində işləməlidir. İngiltərədə isə ən gizli hərbi qüvvələr Krallıq Donanmasının Xüsusi Dəniz Qüvvələri hesab edilir. Onların məşhur şüarı da var: "Güclə deyil, hiyləgərliklə".

Xüsusi hərbi qrupu fərqlənən ölkələrdən biri də Pakistandır. Ölkənin Xüsusi Xidmət Qrupu terrorizmə qarşı mübarizə üçün yaradılıb. Bu qrupun üzvləri 25 həftəlik olduqca çətin kurslardan və təlimlərdən keçməlidir. Təlimlər əsasən əlbəyaxa döyüş və hava döyüşü əsasında keçirilir. Məlumata görə, bu qüvvələr üçün müraciət edən şəxslərin sadəcə 5 faizi təlimləri uğurla tamamlaya bilib.

Digər fərqlənən xüsusi hərbi qüvvələrdən biri də ABŞ-a məxsus "Delta Force"dir. Bu hərbi birləşmə əsasən terrorla mübarizədə fəaliyyət göstərir. Bu birləşmənin fəaliyyəti daha gizli saxlanılır. Bu qüvvələrlə bağlı rəsmi sənəd və ya görüntülərin ələ keçirilməsi və yayılması demək olar ki, mümkünsüzdür. Bu birləşmənin ən böyük uğuru isə Səddam Hüseynin ələ keçirilməsi olub.

*Qönçə Quliyeva*

ARAŞDIRMA

# “Şəhidlər başımızı dik, alnımızı ağ elədilər”



**Bildiyimiz kimi, 44 günlük Vətən müharibəsi böyük qələbə ilə başa çatdı. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu böyük şücaət və yüksək döyüş hazırlığı göstərərək torpaqlarımızı işğaldan, düşmən tapdağından azad etdi. Tarix yazan qəhrəman Ordumuz, əsgər və zabitlərimiz Azərbaycanın haqq uğrunda mübarizə aparmaq əzmini, əsl döyüş ruhunu bütün dünyaya nümayiş etdirdi. SİA mövzu ilə bağlı gənclər arasında sorğu edərək onların fikirlərini öyrənib.**

**Gənc Rəşad İmanov:** ”Düşünürəm ki, Vətən müharibəsi Azərbaycanın gücünü beynəlxalq arenaya bir daha sübut etdi. Əlbəttə ki, bütün bu proses hər birimizə müəyyən mənada təsir etdi, eləcə də, emosionallıq pik həddə qalxdı.



Məhz bu böyük qələbədən sonra Azərbaycan xalqının, xüsusilə də gənclərin üzərinə böyük yük düşür. Biz gərək gənclər vasitəsilə sosial mediada öz haqlı qələbəmizi təbliğ edək. Bununla yanaşı, 30 illik işğal prosesi, Azərbaycan xalqına qarşı müxtəlif dövrlərdə törədilmiş soyqırımları, deportasiya siyasətini tarixi faktlarla xarici auditoriyaya çatdıraq. Bütün bunlar bizə deməyə imkan verəcək ki, Qarabağ həqiqətən də Azərbaycanın tarixi torpaqları olub.

Ümumi olaraq isə bütün bunları yerinə yetirmək üçün ilk növbədə gənclər təhsilli olmalı, tariximizi bilməli, tarixdən sitatlar və arqumentlər gətirmək üçün bütün bu məsələlərə hakim olmalıdır. Məhz belə olduqda, bütün dünya, həmçinin düşmənimizin tərəfində duran dünya dövlətləri, müxtəlif lobbilər də, müəyyən vaxt keçdikcə bizim haqlı olduğumuzu qəbul edəcəklər”.

**Gənc Röya Vahabova:** ”Yaşım az olanda ətrafımda səslənən cümlələrin təsiri ilə daima müharibə arzulayırdım. Müharibə olsun, torpaqları azad edək. Vətən sağolsun! İgid əsgər irəli! İndi isə bu sözlər əvvəlki təsirini itirib. Hər şəhidin ardında yarım qalan insanlar: analar, atalar, bacılar, qardaşlar, gəlinlər, gözü yolda qalan yarlar, üzr videosu çəkilən qardaşlar və daha nələr. Bunlar hamısı bizim bir nəfəsə dediyimiz şəhid sözünün ardında qalanlardır. Biz bir dəfə dedik bitdi. Nə müharibələr bitməyəcək, nə yarımçıq həyatlar.



Uşaq ikən müharibə deyəndə ağlıma vuruşan igid əsgərlər gəlirdisə, indi qorxu ilə şəhid siyahılarında oğlunun adını axtaran analar, qardaşını axtaran bacılar, qardaşlar, yarım qalmış hekayəsini axtaran qızlar gəlir. Vətən müharibəsi ilə qələbə qazanırıq deyirik. Amma həm də vətənimiz ürəyi dağlanmış vətəndaşların vətəninə çevrilir. Artıq sevinməyi belə çox görürük özümüzə. Sevinəndə günaha batmış hiss edirik özümüzü. Bəlkə də bir gün vətənimiz bir olacaq amma insanlarımız acılarıyla yarım qalacaq. Dünyanın ədaləti”.

**Gənc Nərmin Nağıyeva:** ”Azərbaycan dövlətinin və xalqının tarixinə müqəddəs şəhid qanıyla yazılan 27 sentyabr 2020-ci il tarixi həm də bizim böyük Zəfər yolumuzdur. 44 gün davam edən müharibə zamanı Ordumuz Ermənistanı kapitulyasiyaya məcbur etdi. Nəticədə, qarşı tərəfin 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə, çoxsaylı strateji yüksəkliklər düşmən əsarətindən azad olunmuş və şanlı bayrağımız bu ərazilərdə dalğalandırılmışdır.



İlham Əliyevin xalqa müraciətinin hər bir şüarı epitetə bənzədilirdi və uşaqdan böyüyə kimi hərkəsin dilində əzbər olmuşdu. Bu 44 gün ərzində xalqın birliyi, dözümlülüyü nəyə desən dəyərdi. Biz bu günlər ərzində ATƏT-in, başqa digər beynəlxalq təşkilatların 30 ildə həll etmədiyi problemi 44 gündə şanlı ordumuzun əsgərləri sayəsində etdik! Bu Zəfərin qazanılmasında eyni zamanda arxa cəbhədə hesab edilən daima fədakarlıq etməyə can atan Xalq dayanırdı! Kimisi siqaret, corab, isti geyimlər, şirniyyat, su göndərirdi. Bu siyahını uzatmaq da olar. Biz 30 il boyunca bizim üçün önəm daşıyan Şuşanı azad etdik! Həmin ərazilərdəki döyüşlər sanki bizə nağılları, dastanları və film sujetlərini xatırladırdı”.

**Gənc Zərintac Maisqızı:** ”Azərbaycan tarix boyu çətin sınaqlardan keçib. Ölkəmiz hər zaman diqqət mərkəzində olub. Çünki münbit torpağa, əlverişli relyefə və zəngin neftə sahibdir.



Bizim ən böyük düşmənimiz tarix boyu arxadan zərbə vuran, çörəyimizi yeyib qanımızı içən ermənilər olub. Onlar bizim torpaqları işğal edib, soydaşlarmızı vəhşicəsinə qətlə yetirdilər.

Ermənilərin vəhşiliklərinə görə azərbaycanlıların 30 ildir qəlbi yanırdı. Amma xalqımızın qəlbində inam hər zaman var idi. O inam bizi qələbəyə apardı. 30 il səbr etdik. Amma sülh anlayışı düşmənə həmişə yad oldu. Onlar zorakılıq və təcavüzkarlıqdan başqa heç nə bilmirlər. Bizim müharibədən başqa yolumuz qalmamışdı. Mən bir övlad olaraq da qürur duyuram. Çünki atam da Vətən müharibəsində vuruşub. Bütün hərbiçilər bizim üçün doğmadır. Atamın timsalında bütün hərbiçilərlə qürur duyuram.

Doğrudur, anaların gözü yaşlı qaldığına görə tam sevinə bilmədik. Şəhidlər sülh göyərçinləridir. Onlar öz canlarını bizim üçün, Vətən üçün qurban verdilər. İnanıram ki, bundan sonra dünyada sülh qələbə qazanacaq. Bundan sonrakı nəsillər sülhlə böyüsün. Azərbaycan heç vaxt işğalçı dövlət olmayıb. Biz düşmənə belə humanist davranmışıq. Bu barədə uzun-uzadı danışmaq olar. Hətta deyərdim ki, kitab yazsaq da azdır. Bir tərəfim kədərli, digəri isə qürurla doludur. Mən də bir vətəndaş olaraq vətənim üçün canımı sevə-sevə fəda edərəm”.

**Gənc Aytac Əliyeva:** ”2 il bundan əvvəl çox ağır, eyni zamanda qürurlu günlər yaşadıq. Əslində 44 günün hər anı ayrı bir dastandır. 30 illik qara ləkəni alnımızdan qısa müddətdə silib, birdəfəlik bu yaranı sağaltdığımız Vətən müharibəsi igidlərimizin gələcək nəsillərə yazdığı tarix səlnaməsi, yenidən öz elinə qovuşacaq torpaqlar isə onların bizlərə ən böyük əmanətidir.

Şükürlər olsun ki, sonunda zəfər günəşi Qarabağımızda parladı. Azərbaycanın mərd oğulları tarixi qanı ilə yenidən dəyişdi və ədaləti bərpa etdi. Bu haqq savaşındakı qələbəmizi başda Ali Baş Komandan İlham Əliyev olmaqla, bütün əsgərlərimizə borcluyuq.



Həmin günlərdə arxa cəbhədə birləşən və dəmir yumruq olan vətəndaş və soydaşlarımızı da unutmaq olmaz. O anlar ən çox azərbaycanlı olduğumuzu hiss edib, iliyimizə qədər vətənpərvərliyi duyduğumuz günlər idi. Və şəhidlərimiz İndi ən uca məqamda olan onlar bizə ən gözəl hədiyyəni verdi. 30 qara ildən sonra biz Zəfəri daddıq. Başımızı dik, alnımızı ağ elədilər. Ruhları şad olsun Yaşasın Azərbaycan, var olsun xalqımız!”.

**Gənc Arzu Rövşən:** ”Vətən müharibəsi zamanı Ermənistandan Azərbaycana qarşı aparılan informasiya müharibəsinin qarışısı layiqincə alındı. Artıq, elə bir dövrdə yaşayırıq ki, sosial şəbəkələrdə məlumatı çatdırmaq və onu yaymaq daha rahatdır. İnformasiya silahı digər silahlardan geri qalmır. Biz də bacardığımız qədər informasiya müharibəsində aktiv iştirak etdik və bunun nəticəsi uğurlu alındı”.



***Ayşən Vəli***

ŞƏRH + AKTUAL

# Sülh danışıqlarının açıq qalmış sualları

*ABŞ-ın və Fransanın aktivliyi Ermənistanın son ümid yeridir*



Politoloq Fərhad Məmmədov Ermənistanın sülh danışıqları və ona bağlı proseslərin uzadılması ilə əlaqəli analitik şərhlə çıxış edib. SİA xəbər verir ki, özünün rusdilli mneniyafm teleqram kanalında fikirlərini şərh edən politoloqa görə, son proseslərdən sonra Qərbin qarışqa yuvası hərəkətlənib. Belə ki, ABŞ-ın Dövlət katibliyi, Pentaqon rəhbərliyi və milli təhlükəsizlik müşavirliyi səviyyəsində Ermənistan-Azərbaycan münasibətlərinə aid prosesə daxil olunmaqdadır. Fransa da öz prezidenti səviyyəsində özünün "beş qəpiyini" ortaya qoyur. Yunanıstan isə ümumiyyətlə, ABŞ və Fransanın çağırışı olmadan bu məsələyə qatılıb.

### Danışıqların ən kənar nöqtəsi - ölkələrin ərazi bütövlüyü ilə bağlıdır

Bütün bunlarla yanaşı, müzakirə olunan gündəlik ayrı-ayrı bloklara (sülh sazişi, blokadadan çıxma, sərhəd, humanitar hissə) bölünmür, hər şey yeganə proses çərçivəsində danışılır. Belə bir situasiyanın səbəbi ondadır ki, bütün mövzular bir-biri ilə əlaqəlidir. Başqa tərəfdən isə bu mövzuların heç biri həll olunmayıb və cavabını tapmayıb.

Danışıqların ən kənar nöqtəsi - ölkələrin ərazi bütövlüyü ilə bağlıdır. Lakin bu mövzu Azərbaycana aid olanda ABŞ və ATƏT-in Minsk qrupunun həmsədrləri təcavüzkar ölkəyə dəstək göstəriblər. Lakin həmin mövzu Ermənistana aid olanda hər şey dəyişildi və üzə çıxmağa başladı, hər kəs narahat oldu... Biz hər dəfə bunu onların üzlərinə vurmalıyıq.

### Bu, onların maksimal danışıqlar mövqeləridir ki, zaman-zaman əriməyə başlayacaq...

ABŞ-ın və Fransanın aktivliyi Ermənistanın son ümid yeridir və bundan sonra qərarlar qəbul olunmalıdır - məhz sülh danışıqları. Əgər ümumi götürsək Ermənistan mövcud mərhələdə özünün himayədarları və havadarları ilə Qarabağdakı ermənilər üçün hər hansı "status" almağa (hətta ərazi də yox) cəhd edir, sülh danışıqlarında Qarabağın (separatçıların) heç olmasa xatırlanmasını, eləcə də Qərbin təmsilçiliyini istəyir. Bu, onların maksimal danışıqlar mövqeləridir ki, zaman-zaman əriməyə başlayacaq...

### Azərbaycanın isə mövqeyi prinsipialdır ki, Qarabağ onun daxili işidir, sülh danışıqları isə dövlətlərarası gündəmi əks etdirir...

Ermənistanla danışıqların mövcud mərhələsi bilavasitə sülh gündəmindən ibarətdir ki, bu haqda çox danışılır, lakin bununla yanaş digər mövzulara da aydınlıq gətirilməlidir ki, onlar hələ də açıq qalıblar:

* Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən tamamilə çıxarılması;

* Ermənistandan gələn infrastruktur və təminat fəaliyyətlərininreqlamentasiyası, yaxud onların bağlanması;

* Qarabağ erməniləri üzərində qanunsuz hakimiyyət quran Ermənistanın oradakı xuntaya ayırdığı hərbi maliyyədən imtinası...

Mövcud mövzular situasiyanın dəyişilməsi nöqteyi-nəzərindən əhəmiyyətlidir. Belə ki, bizlər bir sıra sənədlərin imzalanmasının şahidləri olmuşuq ki, sonradan onlara əməl olunmayıb.

**Rövşən RƏSULOV**




# YAP nümayəndə heyəti İCAPP-ın xüsusi konfransında iştirak edib

Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ramin Məmmədov və YAP Mərkəzi Aparatının Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin aparıcı məsləhətçisi Taleh Həsənzadə Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının (İCAPP) Koreya Respublikasının hakim Xalqın Gücü Partiyası vəmüxalif "Minjoo" (Demokratik) Partiyasının birgə evsahibliyi ilə 2022-ci il 28-30 sentyabr tarixlərində Koreyanın Seul şəhərində keçirilmiş "Siyasi partiyalar vasitəsilə Asiyanın siyasi inkişafı" mövzusunda xüsusi konfransında iştirak ediblər. SİA xəbər verir ki, 13 ölkədən 23 siyasi partiyanın 60-a yaxın nümayəndəsinin qatıldığı konfransın "Demokratiyanın inkişafında siyasi partiyaların rolu" mövzusunda 1-ci sessiyasında çıxış edən Ramin Məmmədov formalaşmaqda olan yeni dünya nizamının siyasi partiyalar qarşısında meydana çıxardığı çağırışlardan bəhs edərək müasir dövrdə partiyaların yalnız təmsil etdikləri cəmiyyətin gözləntilərinə deyil, bütövlükdə qlobal dünyanı narahat edən təhlükə və təhdidlərə adekvat ideyalar sistemi təqdim etməli olduqlarını vurğulayıb.



Azərbaycan siyasi sistemində partiyaların rolundan bəhs edən R.Məmmədov çoxpartiyalı sistemin demokratik cəmiyyət quruculuğunun vacib elementi kimi milli inkişaf strategiyasının əsas parametrlərindən biri olduğunu söyləyib. O həmçinin, 44 günlük Vətən Müharibəsinin yaratdığı yeni reallıqların, Cənubi Qafqazda təhlükəsizlik konfiqurasiyasının əhəmiyyətli şəkildə dəyişməsinin Azərbaycanda siyasi münasibətlər sisteminin məzmununa gətirdiyi yeniliklərdən bəhs edib. R.Məmmədov qeyd edib ki, Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar Cənubi Qafqazda sülh çağırışlarının aktuallığını həm ölkə əhalisinə, həm də beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmağın vacibliyini nəzərə alaraq bu məsələni ideoloji prioritetlər siyahısına daxil edib: "Bu kontekstdə Yeni Azərbaycan Partiyası kifayət qədər ciddi və həyati əhəmiyyət daşıyan bir missiyanı yerinə yetirir. YAP milli siyasi qüvvələrin konsolidasiyasına və beləliklə də ümumi mənafelərə xidmət edən siyasi dialoqun təşəbbüskarı rolunu uğurla həyata keçirir. Bu təşəbbüsün ideya-siyasi məzmunu həm də Cənubi Qafqazda əməkdaşlıq mühitinin yaradılmasını nəzərdə tutur". R.Məmmədov, həmçinin "İctimai seçki sistemi vəsiyasi partiyaların inkişafı" mövzusunda 2-cisessiyanın moderatoru olub. Tədbir iştirakçılartərəfindən Seul Bəyanatının qəbul edilməsi ilə başaçatıb.

# "Zərərli vərdişlərə yox de, sağlam həyat tərzini seç" adlı sərbəst güləş üzrə turnir keçirilib

Sentyabrın 29-da Şağan Olimpiya İdman Kompleksində Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun və "Azərbaycan Televiziyası və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin 2022-ci ilə dair imzalanmış birgə Tədbirlər Planına uyğun olaraq YAP Xəzər rayon təşkilatının və Xəzər rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Zərərli vərdişlərə yox de, sağlam həyat tərzini seç" devizli yeniyetmələr arasında sərbəst güləş idman növü üzrə rayon turniri keçirilib.

Tədbirdə Dövlət Himni səsləndirilib, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.




Sonra mərasimdə çıxış edən Xəzər Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Elşən Qurbanov, YAP Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsi müdirinin müavini Zəkiyyə Musayeva, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi Qrupunun rəhbərinin müavini Tanrıverdi Aydınov, Xəzər Rayon İcra Hakimiyyətinin başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Gülbala Qurbanov və Xəzər Rayon Gənclər və İdman İdarəsinin rəisi Vüqar Əliyev bildiriblər ki, gənclər arasında narkomaniyaya qarşı mübarizədə təbliğat işləri daha da gücləndirilməlidir. Kütləvi idman tədbirləri də məhz bu məqsədə xidmət edir. Əsas məqsəd cəmiyyətimizdə, xüsusilə də gənclər arasında zərərli vərdişlərin qarşısını almaqdan ibarətdir. Qeyd olunub ki, Xəzər rayonunda keçirilən sərbəst güləş üzrə idman turnirində 9 çəki üzrə 100-ə yaxın gənc iştirak edir.

Daha sonra final oyunlarına start verilib. Maraqlı mübarizə şəraitində keçən turnirin qalibləri müəyyənləşib. Sonda turnirin müxtəlif çəki üzrə I, II və III yerlərin qalibləri mükafatlandırılıb.

Xatırladaq ki, Prezident İlham Əliyev tərəfindən təsdiq olunmuş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın icrası ilə əlaqədar Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatı, "Azərbaycan Televiziyası və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən işçi qrupu arasında 2022-ci ilə dair birgə Tədbirlər Planı imzalanıb. Tədbirlər Planı çərçivəsində narkomaniyaya qarşı mübarizə sahəsində maarifləndirmə işinin aparılması məqsədilə təlimçilərin hazırlanması, bu istiqamətdə dəyirmi masaların, fleşmobların, idman yarışlarının, mədəni-kütləvi tədbirlərin keçirilməsi davam edir.

# VƏTƏN MÜHARİBƏSİ:

## milyonlarla insanların gözlədiyi cəbhə xəbərləri

### Prezident İlham Əliyev: "Əgər onlar işğalçını dayandıra bilmirlərsə, Azərbaycan əsgəri onları dayandıracaqdır"



**"Azərbaycan öz doğma torpağında vuruşur və siz haqq yolunda yaralanmısınız. Bizim əsgərlərimiz xilaskar əsgərlərdir. Erməni əsgərləri işğalçı əsgərlərdir. Fərq bundadır. Biz öz torpağımızda vuruşuruq, erməni əsgəri başqa dövlətin torpağında - Azərbaycan torpağında ölür".**

Bu fikirləri 2020-ci ilin sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Ermənistanın sentyabrın 27-dən başlayan hərbi təxribatı zamanı yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşü zamanı bildirmişdir. Dövlət başçısı qeyd etmişdir ki, artıq dördüncü gün davam edən döyüşlərdə Azərbaycan Ordusu uğurlu əməliyyat keçirərək, strateji yüksəklikləri işğalçılardan azad edib, bir neçə yaşayış məntəqəsini işğaldan azad edib, uzun fasilədən sonra biz bu torpaqlara qayıtmışıq: "Bu torpaqlarda öz bayrağımızı sancmışıq və artıq bu torpaqlardan bizi heç kim çıxara bilməz, biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik. Ona görə erməni xalqı bunu anlamalıdır. Anlamalıdır ki, 30 ilə yaxın başqa dövlətin torpağını zəbt etmək, orada bütün binaları, bütün tarixi abidələri dağıtmaq, 1 milyondan çox insanı öz doğma torpağından didərgin salmaq, Azərbaycan xalqına qarşı soyqırımı törətmək cinayətdir. Biz tarixi ədaləti bərpa edirik, tarixi ədaləti! Qarabağ bizim doğma, əzəli, tarixi torpağımızdır".



### HƏR GÜN BİZİ QƏLƏBƏYƏ APARAN BİR ADDIM

44 gün milyonlarla insanın səbirsizliklə gözlədiyi CƏBHƏ XƏBƏRLƏRİ. Hər gün eşitdiyimiz xəbərlər bizi qələbəyə daha da yaxınlaşdırırdı. Otuz ilə yaxın bir zamanda insanların əzəli torpaqlarımıza dönəcəyi arzularının reallaşmasına hər ötən gün yaxınlaşırdıq. Azərbaycan Ordusu respublikamızın ərazi bütövlüyünü təmin etmək uğrunda Ermənistanın hərbi təxribatına qarşı mübarizə aparırdı. İşğal altındakı torpaqlarımızın bir hissəsi, bir neçə strateji əhəmiyyətli yüksəklik qısa bir vaxtda azad olundu və düşmənin xeyli canlı qüvvəsi və döyüş texnikası məhv edildi, mühəndis-istehkamları dağıdıldı. Təbii ki, əldə olunan qələbəmizin əsasında hər şeydən əvvəl Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən ölkəmizdə güclü iqtisadiyyatın yaradılması istiqamətində apardığı uğurlu və məqsədyönlü siyasət dayanırdı. Ulu Öndər Heydər Əliyevin "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" fikri bir daha Vətən müharibəsində öz təsdiqini tapdı. Vətən müharibəsində xalqımızın düşmənə qarşı apardığı mübarizə ədalətli və özünün işğal olunmuş torpaqlarının azad olunması məqsədini daşıyırdı. Prezident İlham Əliyevin iradəsi və qətiyyəti, xalqla hakimiyyətin həmrəyliyi, ölkəmizdə yaranan siyasi birlik, xalqımızın ruh yüksəkliyi və qələbəyə möhkəm inamı sayəsində mənfur düşmənin torpaqlarımızdan qovulacağına qəti əminlik yaratmışdır. Düşmən təxribatlarına son qoymağa və torpaqlarımızdan bir dəfəlik getmələri tələb olunarkən, "Qarabağ Azərbaycandır", "Qarabağa Azadlıq" şüarları səsləndirildi. Azərbaycan gəncləri mübarizəni sosial şəbəkələr vasitəsi ilə də aparararaq, müasir dövrün tələblərinə uyğun olaraq informasiya müharibəsində fəallıq göstərdilər. "Sentyabrın 27-də erməni silahlı birləşmələri bizə qarşı növbəti hərbi təxribat törədib. Mən onları xəbərdar etmişdim. Onlara BMT kürsüsündən sözlərimi demişdim", - deyən Azərbaycan Prezidenti bildirib ki, bütün beynəlxalq ictimaiyyətə sözlərimi demişdim ki, Ermənistan yeni müharibəyə hazırlaşır, Ermənistan dayandırılmalıdır: "Əfsuslar olsun ki, beynəlxalq ictimaiyyət və bu məsələ ilə məşğul olan tərəflər erməni hökumətinə lazımi səviyyədə təsir edə bilməmişlər. Əgər onlar işğalçını dayandıra bilmirlərsə, Azərbaycan əsgəri onları dayandıracaqdır. Azərbaycan əsgəri onları öz torpaqlarından çıxaracaq və haqq-ədaləti bərpa edəcək.



Mən demişdim ki, əgər iyul və avqust aylarında bizə qarşı törədilmiş hərbi təxribatlar təkrarlanarsa, Ermənistan peşman olacaq və sözümün üstündə dururam. Bu gün döyüş meydanında əldə olunmuş üstünlük, azad edilmiş yaşayış məntəqələrimiz, strateji yüksəkliklər bir daha onu göstərir ki, Azərbaycan əsgəri, Azərbaycan zabiti öz vətəndaşlıq borcunu şərəflə yerinə yetirir".

### AZAD OLUNACAQ ƏRAZİLƏRDƏ BAYRAĞIMIZIN SANCILACAĞI GÜN QARŞIDA İDİ

Son illər ölkəmizin iqtisadi qüdrətinin artması milli ordumuzun möhkəmlənməsinə də geniş imkan yaradıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına səbəb oldu. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılıb. Məhz bunun nəticəsidir ki, Azərbaycan Cənubi Qafqaz regionunda ən güclü orduya malik ölkə statusunu daşıyır. Bu gün Azərbaycanda istehsal olunan bir çox hərbi məhsullar ordumuzun potensialının gücləndirilməsində əsas amillərdən biridir. Ölkəmizdə yaradılan 20-dən çox hərbi zavodda müxtəlif adda hərbi təyinatlı müxtəlif məhsullar istehsal olunur. Son illər Azərbaycanda böyük miqdarda müasir tanklar, hərbi nəqliyyat vasitələri, HHQ sistemi, tank əleyhinə raket və artilleriya sistemi, pilotsuz uçuş aparatları alınıb. Ölkənin yeni hərbi qüdrəti və üstünlüyü 2016-cı ilin aprel döyüşlərində nümayiş etdirilib. Bu hərbi əməliyyatlar ən müasir hərbi texnika ilə təchiz edilmiş Azərbaycan Silahlı Qüvvələrinin döyüş əməliyyatlarında real üstünlüyə malik olduğunu nümayiş etdirdi. Azərbaycan Ordusunun Lələtəpədə, Naxçıvanın Günnüt, Qızılqaya yüksəkliklərinə sancdığı Azərbaycan bayrağının tezliklə Qarabağ torpağında azad olunacaq ərazilərdə sancılacağı gün qarşıda idi. Heç kəsdə şübhə doğurmurdu ki, güclü orduya, iqtisadi gücə, milli birliyə malik olan Azərbaycan işğal altında olan torpaqlarımızı qarış-qarış azad edirdi. Ordumuzun yüksək döyüş hazırlıq qabiliyyəti, ən son növ döyüş texnikası və hərbi avadanlıqlar ilə təmin olunması eləcə də gənclərimizin ölkə rəhbərliyinə və ordumuza verdiyi dəstək bunu deməyə əsas verdi. Prezident Cənab İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin ərazi bütövlüyünün bərpası, torpaqlarımızın yağı düşməndən azad edilməsi istiqamətində yürütdüyü siyasət xalqımıza zəfər sevincini yaşatdı. Cənab İlham Əliyevin vurğuladığı kimi, "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

***Nəzakət ƏLƏDDİNQIZI***

# Sosial şəbəkələrdən biznes kimi istifadə etmək olar?

**Son bir neçə ildə internetin inkişafının əsas tendensiyalarından biri sosial şəbəkələrin populyarlığının sürətlə artmasıdır. Son zamanlar sosial şəbəkələr daha çox konkret mövzu və ya obyekti təbliğ etmək üçün istifadə olunur.**

Bir neçə ildir ki, sosial şəbəkələr və icmalar ("Facebook", tvitter", "vkontakte" və s.) milyonlarla insanın ünsiyyət məkanına çevrilib. İstifadəçilərin sıx olduğu yerlər həmişə bizneslə məşğul olanlar, internet saytları yaradanlar, internetdə müştəri xidmətlərini təbliğ edənlər və ya qeyri-kommersiya layihələri ilə məşğul olanlar üçün maraqlıdır. Bu baxımdan sosial şəbəkələrdə tanıtım get-gedə populyarlaşır.

Cəmi bir neçə il əvvəl bizneslər satış, potensial müştərilər yaratmaq, dönüşümləri artırmaq və onlayn olaraq brend şüurunu artırmaq üçün yalnız vebsayta etibar edə bilirdilər. Bu gün rəqəmsal sahənin bütün üstünlüklərindən istifadə etmək üçün çox çalışmaq lazımdır.









Uzun illərdir ki, sahibkarların ən çox istifadə etdiyi biznes vasitələrindən biri sosial mediadır. Əvvəllər sadəcə minimum imkanlardan istifadə edirdilər və biznes üçün xüsusi " imkanlar" yox idi. O vaxtdan bəri sosial şəbəkələr əhəmiyyətli dəyişikliklərə məruz qalıb və indi güclü marketinq vasitəsidir. İnsanların bir-biri ilə nəinki ünsiyyət qurduğu, həm də brendləri izlədiyi, müxtəlif məhsul və xidmətlərlə tanış olduğu platformadır.

Biznes üçün sosial şəbəkələr milyonlarla və hətta milyardlarla potensial alıcının oturduğu yerdir desək yanılmarıq. Bununla belə, sosial şəbəkələrin üstünlükləri olduğu qədər bizneslə məşğul olmaq baxımından çatışmazlıqlar da kifayət qədərdir. Buna görə də "facebook", "instaqram", "tvitter" biznes səhifəsi yaratmazdan əvvəl platformanı A-dan Z-yə qədər öyrənməli, irəli getmək üçün hansı yanaşmalardan istifadə etməyi və hansılarından imtina etməyin daha yaxşı olduğunu öyrənmək vacibdir. Sosial şəbəkələrdə tanıtım üçün marketinq strategiyası səriştəli şəkildə hazırlanarsa və peşəkarlar tərəfindən həyata keçirilərsə, tanınma, trafik və satışı artıracaq və gələcək inkişaf üçün ideyalar təklif edəcəkdir. Bir çox brendlər sosial şəbəkələr sayəsində uğur qazansalar da, eyni zamanda bir çoxları orada öz reputasiyalarını məhv ediblər.

## Sosial şəbəkələrdə biznesin təşviqi üçün hansı yanaşmanı seçmək daha doğru olar?

Sosial şəbəkələrin böyük auditoriyası var və bu auditoriya insanların potensial müştəriləridir. Bir çox insanlar, xüsusən də gənclər internetdə sosial şəbəkələrdən başqa heç bir saytdan istifadə etmirlər. Ancaq başa düşmək lazımdır ki, insanlar sosial şəbəkələrə ünsiyyət və əyləncə üçün gəlir və auditoriya ilə qarşılıqlı əlaqə strategiyası qurarkən bu nəzərə alınmalıdır. Bu o deməkdir ki, digər şeylərlə yanaşı, ünsiyyət auditoriyaya tanış olan dildə olmalıdır. Onlayn tanışlığı "satış" və "biznesin inkişafı" üçün tanışlığa ayırmaq lazımdır. Ancaq hər halda, onlayn tanışlıq prosesi oflayn tanışlıqdan fərqlənmir. Onlayn tanışlıq daha asan və daha sürətlidir. Fikir liderləri adlandırılanlarla - sənayedə ictimai nüfuza malik olan insanlarla (və buna görə də onların nüfuzuna etibar etməyə öyrəşmiş böyük bir auditoriya ilə) tanış olmaq son dərəcə vacibdir.

Sosial şəbəkələrdə brend müştəriyə özü yaxınlaşır, onunla eyni dünyada olur - özünü bəyan edir, məzmun vasitəsilə ünsiyyət qurur, seçimdə köməklik edir. Hər gün təxminən 31 milyon, hər dəqiqədə 22 000 nəfər insan sosial şəbəkələrə daxil olur. Bu auditoriyanın bir hissəsi şirkətin potensial müştəriləridir. Mal almağa və xidmətlər sifariş etməyə hazırdırlar, qalan tək şey bu insanları tapmaq və onlara imtina edə bilməyəcəkləri təklif verməkdir.

Sosial şəbəkələrdə potensial müştəriləri axtarmaq üçün xüsusi xidmətlər var - onlar auditoriyanı təhlil edir və müəyyən edilmiş parametrlərə görə istifadəçiləri qruplaşdırır. Xidmətlərlə işləməyə başlamazdan əvvəl şirkətin hədəf auditoriyasının kim olduğunu başa düşmək vacibdir. Əgər şirkət sosial şəbəkələrdə düzgün satış hunisi qurubsa və öz işində bütün təşviqat vasitələrindən istifadə edirsə, trafik və satış gedəcək. Satış rəqəmləri dəyişə bilər və bir çox şeydən asılı ola bilər: məhsulun özü, auditoriya, bazar ölçüsü, sosial media rəqabəti, məhsulun qablaşdırılması, reklam büdcəsi, reklam keyfiyyəti, paylama və s. heç kim dərhal sosial şəbəkələrdən gəlir əldə edəcəyinizə zəmanət verə bilməz - hər şey sınaqdan keçirilməlidir.

Bir brend istifadəçilərlə müxtəlif yollarla ünsiyyət qura, müsabiqələr təşkil edə, promosyonlar keçirə, şərhlərdə ünsiyyət qura və ya məhsulları və əlaqəli məhsullar haqqında faydalı məlumatlar təqdim edə bilər. Fayda və maraq nə qədər çox olarsa, insanların brendə sadiqliyi də bir o qədər yüksək olar.

İnsanlar xidmətə və problemlərinin tez həllinə öyrəşiblər və əgər şirkət onların gözləntilərini doğruldursa, o zaman onların şirkətin daimi müştərisi olma ehtimalı artır. Ona görə də şərhlərə tez cavab vermək, dialoq saxlamaq, etiraf etmək vacibdir. Sosial şəbəkələr onlayn satış üçün müxtəlif alətlər təqdim edir, "facebook" və "İnstaqram" şəbəkələri bu sahədə bir neçə ildir imkanlar yaradıb.

İstər internet üzərindən (instagram və s. daxil), istərsə də mağazada mütləq məhsulun adı, növü və qiyməti göstərilməlidir. Qiymətin göstərilməməsi Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında ticarət, məişət və digər növ xidmət (iş görülməsi, xidmət göstərilməsi) Qaydaları haqqında" 15 aprel 1998-ci il tarixli, 80 nömrəli qərarına zidd davranışdır. Bu hərəkət istehlakçının antiinhisar siyasəti ilə məşğul olan quruma şikayət hüququ yaradır, nəticədə mağaza cərimələnir. İnternet mağaza sahibləri əsla qiymət göstərmədən malları satışa və ya reklama qoya bilməzlər.

Sosial şəbəkələrdə reklam kampaniyası təşkili zamanı onların altında bütün istifadəçilər ən uyğun forum tapmaq üçün icma qrupları nəzərə almalıdır. Şirkətlərin əməkdaşları ən müxtəlif vasitələrlə, hətta birbaşa evlərə zəng vurmaqla sakinləri onlarla işləməyə dəvət edirlər. İlk dəfə marketinq Latın Amerikasında yaranıb, sonralar ABŞ-a da sirayət edib. Lakin Amerikada bu marketinqə yasaq qoyulub.

Şəbəkə marketinqində olan qiymətlər real bazar qiymətlərindən bahadır. Buna baxmayaraq, dünyada, əsasən də işsizliyin hökm sürdüyü ölkələrdə geniş yayılıb. Şəbəkə marketinqi insanları zəhmətdən yayındırır. O cümlədən, məhsulların satışı həm də internet üzərindən olduğu üçün, vergidən yayınma halları da baş verir.

İqtisadi və Sosial İnkişaf Mərkəzinin tədqiqatları göstərir ki, bu gün, demək olar, şəbəkə marketinqi inkişaf etmiş ölkələrdə zəif, inkişafda olan ölkələrdə isə yaxşı inkişaf edib. Səbəb də əhalinin buna inamı və işsizlikdir. Bu biznesin gəlir qazanma xüsusiyyəti piramida üsulu ilə fərqlənir. Bir nəfər gəlir, sonra isə o bir nəfər özü ilə bir nəfər gətirməlidir. Bir sözlə, piramida sistemi yaranır.

Adamlar elə bilirlər ki, çox insan bura gəlirsə, demək, burada yaxşı qazanc var, amma nəticələr fərqlidir. Təəssüflər olsun ki, nə qədər insanın buradan ziyanla, borcla çıxmalarından xəbərsizdirlər.

Mütəxəssislərin fikrinə əsaslansaq, belə bir nəticəyə gəlmək olar ki, Azərbaycanda şəbəkə biznesinə qoşulan, tutaq ki, min adamın ən yaxşı halda orta hesabla 15 faizi udur, yəni 850 nəfəri uduzur, yalnız 150 nəfəri udur. Bu 150 nəfəri görən hər bir adam isə düşünür ki, onlar da uda bilərlər.

Azərbaycanda da bu sosial şəbəkənin kifayət qədər istifadəçisi formalaşıb. Hətta informasiyalı cəmiyyətin şərtlərindən irəli gələrək bu sosial şəbəkədən yararlanıb, sözün əsl mənasında öz bizneslərini quranlar da var. Onlar "online biznes"i həyata keçirirlər. Dünya praktikasında "online biznes"i həyata keçirən saysız-hesabsız saytlar formalaşıb və formalaşmağa davam edir.

***Havar Şəfiyeva***

# “Media Reyestrinin yaradılması ilə mətbuatın inkişafında yeni səhifə açılır”



“Dövlətimizin bütün dövrlərdə cəmiyyətin güzgüsünə çevrilən, hər bir ölkənin inkişaf səviyyəsini göstərən mətbuatın fəaliyyətinin stimullaşdırılması, media mühitinin sağlamlaşdırılması istiqamətində atdığı addımlar davamlılığı ilə diqqət çəkir. Bu gün artıq yeni dövrün yeni reallıqlarını yaşayırıq. Tarixi Zəfərimiz bütün sahələrdə yeniliklərə, təkmilləşməyə yol açmaqla yanaşı, mətbuatımızın da qarşısında bir sıra həllivacib məsələlər qoydu. Dövlət başçısı İlham Əliyevin 12 yanvar 2021-ci il tarixli ”Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında” Fərmanı ölkə mediasının inkişafında yeni bir mərhələnin əsası oldu. Bunun üçün ötən bir ildən artıq dövrdə sözügedən Fərmandan irəli gələn və mətbuatın inkişafına xidmət edən addımların xronologiyasına diqqət yetirmək kifayətdir. Ölkə Prezidentinin qeyd edilən Fərmanı əsasında yaradılan Medianın İnkişafı Agentliyinin (MEDİA) bu müddətdə həyata keçirdiyi layihələr, yeni dövrün tələbinə uyğun olaraq ”Media haqqında” Qanunun hazırlanması ilə bağlı apardığı müzakirələr və son nəticədə bu qanunun prosedur qaydalarına uyğun şəkildə Milli Məclisdə qəbul olunması və bu ilin fevralında dövlət başçısı İlham Əliyevin müvafiq Fərmanı əsasında təsdiqlənərək qüvvəyə minməsi mətbuat sahəsində təkmil hüquqi bazanın yaradılmasını təmin etdi. Bundan əlavə, jurnalistlərə sosial ipotekadan yararlanmaq imkanının yaradılması, qəzet kağızının ƏDV-dən azad edilməsi, media reyestrinin qaydalarının təsdiqi və sair kimi biri-birindən əhəmiyyətli addımlar dünya informasiya məkanına inteqrasiya siyasətini uğurla həyata keçirən Azərbaycanın media mühitinə gətirdiyi yeni yanaşmaların təqdimatıdır. Bu kimi qərarlar bir daha təsdiqləyir ki, azad, müstəqil mətbuatın inkişafı demokratiyanın vacib amillərindən biri kimi dövlətin siyasətində mühüm yer tutur. Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, demokratik cəmiyyəti mətbuatsız təsəvvür etmək mümkün deyil. Eyni zamanda, bütün dövrlər üçün aktual olan ictimai nəzarətin gücləndirilməsi məsələsində də mətbuatın üzərinə böyük məsuliyyət düşür. Heç də təsadüfi deyil ki, Prezident İlham Əliyevin bu ilin yanvarında yerli televiziya kanallarına müsahibəsində bu məqam xüsusi önə çəkildi”. Bu fikirləri ”İki sahil” qəzetinin Baş redaktoru, Əməkdar jurnalist Vüqar Rəhimzadə bildirib.

Vüqar Rəhimzadə qeyd edib ki, hər bir sahədə möhkəm təməl uğurların davamlılığında əhəmiyyətli rol oynayır: ”Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin 6 avqust 1998-ci il tarixli Fərmanı ilə mətbuatın üzərindən senzuranın götürülməsi ilə mətbuatımızın qarşısında yaranan imkanlar zaman keçdikcə daha da genişlənir, dövrün tələblərinə uyğun olaraq qarşıya çıxan vəzifələrin yerinə yetirilməsi üçün medianın fəaliyyətini tənzimləyən qanunda əlavə və dəyişikliklərə, o cümlədən yeni qanunun qəbuluna zərurət yaranır. Məlum olduğu kimi, ”Media haqqında” Azərbaycan Respublikasının yeni Qanunun qəbulu da bu zərurətdən yarandı. Belə ki, 1999-cu ildə qəbul olunan ”Kütləvi informasiya vasitələri haqqında” Qanun o dövrün reallıqlarını əks etdirirdi. Zaman keçdikcə ölkəmizin həyatında baş verən yeniliklər, eyni zamanda, hər bir sahənin inkişafına geniş imkanlar yaradan, cəmiyyətin idarə olunmasında əhəmiyyətli rol oynayan qanunlarımızda da yeniləşməni bir tələb kimi qarşıya qoyurdu. Bu baxımdan mətbuatın inkişafında yol xəritəsi kimi dəyərləndirilən ”Media haqqında” Qanun özündə 78 maddəni ehtiva edir və burada əks olunan hər bir müddəa çağdaş mətbuatımız qarşısında yeni vəzifələr qoyur. Təbii ki, hədəflərə zamanında və yüksək səviyyədə nail olmaq üçün birgə səylərin göstərilməsi, qüvvə və bacarıqların səfərbər edilməsi mühüm əhəmiyyət kəsb edir. Hər bir mətbu orqan ”Media haqqında” Azərbaycan Respublikasının Qanunundan irəli gələn tələbləri sözdə deyil, əməldə yerinə yetirsə, düşünürük ki, azad və demokratik ölkəmizdəki mühitin daha da təkmilləşdirilməsinə, sağlamlaşdırılmasına öz böyük töhfəsini verə bilər.”

”Hər zaman bu reallığı təqdirəlayiq hal kimi qeyd edirik ki, müasir müstəqil Azərbaycan söz və mətbuat azadlığının inkişaf səviyyəsinə görə MDB məkanında ən qabaqcıl yerlərdədir. Eyni zamanda, bu gün Azərbaycanın adı internetin azad olduğu ölkələr sırasındadır. Ölkə əhalisinin 85 faizdən çoxu internet istifadəçisidir. Bütün bu reallıqları görməzdən gəlib Azərbaycanı qərəzli surətdə ”qeyri-azad ölkə”lər sırasında qeyd edən bəzi beynəlxalq hüquq müdafiə təşkilatlarının hesabatları ilə bağlı dövlət başçısı İlham Əliyevə ünvanlanan sualların cavabı daim bu olur ki, internetin azad olduğu ölkədə mətbuata hər hansı qadağalardan söhbət gedə bilməz. Azərbaycanda azad sözə, fikrə böyük dəyər verilir. Hər kəs öz fikirlərində sərbəstdir. Ölkəmizdə medianın inkişafına, jurnalistlərin sərbəst fəaliyyətinə, peşəkarlıqlarının artırılmasına böyük diqqət göstərilir. Azərbaycanda media sahəsində yaradılan şəraitə bəlkə də dünyanın inkişaf etmiş ölkələrində belə rast gəlmək mümkün deyil”, - Baş redaktor bildirib.

Vüqar Rəhimazədə vurğulayıb ki, Azərbaycan dövlətinin, cəmiyyətinin mətbuatdan gözləntiləri də dövrün reallıqlarına uyğun dəyişir. Hazırkı dövrdə mediamızdan əsas gözlənti milli informasiya təhlükəsizliyini qorumaq, dövlətin, xalqın maraqlarını daim ön planda saxlamaq, peşə etikasına riayət etmək, jurnalistikanın obyektivlik, qərəzsizlik kimi təməl prinsiplərini daim fəaliyyətində əsas götürməkdir: ”Bu istiqamətdə atılan hər bir addım, qəbul olunan hər bir qanun, imzalanan hər bir Fərman və Sərəncam informasiya mühitinin sağlamlaşmasına, informasiya resurslarımızın artmasına, jurnalistlərin statusunun yüksəldilməsinə, nüfuzunun güclənməsinə xidmət edir. Bu baxımdan Media Reyestrinin yaradılması mühüm əhəmiyyət kəsb edir.”

”Media Reyestrinin yaradılması ölkədə fəaliyyət göstərən mətbuat orqanlarının sayının müəyyənləşdirilməsini və onların akkreditasiyasının effektli şəkildə həyata keçirilməsini təmin edəcək” söyləyən Baş redaktor qeyd edib ki, Media Reyestrinə məlumatların daxil edilməsi bu sahədə çalışan işçilərin hüquqlarının müdafiəsi, əmək münasibətlərinin tənzimlənməsi baxımından böyük önəm kəsb edir: ”Digər tərəfdən, bu Reyestrin formallaşdırılması medianın inkişafı ilə bağlı layihələrin həyata keçirilməsində müsbət rol oynayacaq. Media Reyestrinə daxil edilmiş jurnalistlərə vahid jurnalist vəsiqəsinin verilməsi könüllülük əsasında həyata keçiriləcək və məcburi xarakter daşımayacaq. Ümumiləşdirilmiş şəkildə qeyd etsək, Media Reyestrinin yaradılması və vahid jurnalist vəsiqəsinin verilməsi media sahəsində boşluqların aradan qaldırılmasına öz töhfəsini verəcək.”

Vüqar Rəhimzadə onu da qeyd edib ki, mətbuatımızın qısa zamanda keçdiyi inkişaf yoluna nəzər salmaqla həm dövlətin, həm də Medianın İnkişafı Agentliyinin qarşıya qoyulan hədəflərə yüksək səviyyədə nail olmaq üçün səylər göstərdiklərini və uğurlu nəticələrə nail olduqlarını böyük əminliklə söyləyə bilərik: ”Agentlik qısa müddətdə media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi, maddi-texniki bazalarının möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atmaqla media ictimaiyyətinin rəğbətini qazanıb. Hesab edirəm ki, dövlət başçısı İlham Əliyevin 26 sentyabr 2022-ci il tarixli ”Media Reyestrinin aparılması Qaydaları”nın təsdiq edilməsi haqqında” Fərmanı medianın inkişafında növbəti mərhələnin başlanmasının təsdiqidir. Bütün hallarda məqsəd peşəkar medianın fəaliyyətinin stimullaşdırılmasıdır. Media Reyestrinə daxil olan jurnalistlərə vahid jurnalistika vəsiqəsinin verilməsi könüllü olsa da, əminəm ki, bu addım media mühitinin sağlamlaşmasına çox müsbət təsir göstərəcək. Media Reyestrinin aparılması qaydaları ”Media haqqında” Qanunun 73.6-cı maddəsinə uyğun tərtib edilib. Hər bir maddənin təhlili fonunda bu ümumiləşdirməni aparmaq mümkündür ki, jurnalistlərin Media Reyestrinə daxil edilməsində prioritet istiqamət cəmiyyətin informasiya tələbatının ödənilməsində mühüm rol oynayan mətbuat işçilərimizin peşəkarlığının və məsuliyyətinin artırılmasıdır. Həmin maddələr arasında bu mühüm müddəa da öz əksini tapır ki, jurnalistlərin Media Reyestrinə daxil edilməsi üçün qanunla nəzərdə tutulan tələblərdən biri onun ali təhsilinin vacib olmasıdır. Təbii ki, burada söhbət jurnalist təhsilindən getmir. İstənilən sahədə ali təhsil almış şəxs bu tələbə uyğun hesab edilir. Çünki bu gün başqa ixtisas sahibi olub mətbuatda öz sözünü deyən jurnalistlərimiz kifayət qədərdir.”

Baş redaktor bu ümumiləşdirməni aparıb ki, cari ilin arxada qalan dövrü media sahəsində mühüm addımlarla zəngindir. Media Reyestrinin yaradılması və reyestrin aparılması qaydalarının təsdiqlənməsi medianın inkişafında açılan yeni səhifənin uğurlarla zəngin olacağından xəbər verir. Bunun üçün hər bir jurnalist bu qaydaları dərindən öyrənib mənimsəməli, bu mühüm addımın əhəmiyyətini düzgün təhlil etməli, ən əsası qarşıya qoyulan hədəfə öz töhfəsini verməlidir.

# Bütün növ pensiyalarda artımlar olacaq

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 fevral tarixli Sərəncamı ilə qulluq stajına görə əlavə alan əmək pensiyaçılarının (dövlət qulluqçuları, hərbi və xüsusi rütbəli şəxslər və s.) pensiyalarının indeksləşdirilməklə artırılması mexanizminə dair təkliflər Milli Məclisdə müzakirəyə çıxarılacaq. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən hazırlanan ”Əmək pensiyaları haqqında” Qanununa dəyişiklik layihəsinə əsasən 2023-cü ilin yanvarın 1-dən bütün növ pensiyaların indeksləşdirilərək artırılması mexanizmi tətbiq ediləcək.



Bu ildən xüsusi şərtlərlə pensiya alan şəxslərin aylıq pensiyalarına ödənilən 10 faiz, həmçinin digər pensiyaçılara il ərzində ödənilən 200 manat maddi yardım onların pensiyalarının tərkibinə daxil edildikdən sonra yekun pensiya məbləğləri orta aylıq əməkhaqqının illik artım tempinə uyğun olaraq indeksləşdiriləcək.

Bu barədə nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib. Bildirilib ki, misal üçün, 400 manat pensiya və il ərzində 200 manat maddi yardım alan pensiyaçının pensiya məbləği yeni ildən 416,7 manat (400+200/12) qəbul edilərək, üzərinə indeksasiya faizi qədər artım hesablanacaq. Həmçinin xüsusi şərtlərlə pensiya alan hərbi qulluqçunun cari il ərzində aldığı, misal üçün, 800 manat pensiya və 10 faizlik maddi yardım toplanaraq, 880 manat kimi qəbul ediləcək, üzərinə indeksasiya faizi qədər artım hesablanacaq.

Vahid indeksasiya mexanizminin tətbiqi xüsusi şərtlərlə pensiyaya çıxan şəxslərin pensiyalarında davamlı artımı şərtləndirəcək. Belə ki, son 10 ildə bu kateqoriyadan olan şəxslərin böyük əksəriyyətinin pensiyası maksimum 70 faiz artıb. Ümumi əsaslarla pensiyaya çıxan şəxslərin pensiyaları isə bu müddət ərzində indeksasiya nəticəsində 98 faiz artıb. Pensiyaların indeksləşdirilərək artırılması elektron qaydada həyata keçirilir. Xüsusi şərtlərlə pensiyaların da bu metodla artırılması, həm də aidiyyəti qurumların bu sahədə inzibatçılığının yüngülləşdirilməsinə, əməkhaqqı artımı ilə bağlı hər hansı məlumat təqdim etmə öhdəliyinin aradan qalxmasına imkan yaradacaq. Beləliklə, layihə qəbul edildən sonra qulluq əlavəsi alan şəxslərin pensiyası hazırkı mexanizmlə müqayisədə daha çox artacaq. İndeksasiya bütün pensiya məbləğlərinə- həm qulluq əlavəsinə, həm də sığorta hissəsinə şamil ediləcək. Pensiyaların məbləği hər il vahid qaydada-indeksləşdirilərək artırılacaq (qulluq əlavəsi alanların pensiyası təqribən 3-5 il intervalı ilə artırdı.

Dövlət qulluqçusu, hərbi qulluqçu və digər bu kateqoriyadan olan şəxslərə pensiya təyin edildikdən sonra 6 il işlədikdə və ya işdən çıxdıqda, topladıqları kapitala əsasən pensiyalarının ümumi məbləği yenidən hesablanaraq artırılacaq. Pensiyaçılar və onların xidmət keçdiyi orqanların əməkhaqqının artımı ilə bağlı məlumat təqdim etmək öhdəliyi aradan qalxacaq. Bütün pensiyaların indeksləşdirilməsinin tamamilə elektron qaydada aparılması təmin olunacaq.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov sentyabrın 28-də Milli Məclisdə ”Əmək pensiyaları haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin müzakirəsi zamanı bildirib ki, sənəd pensiyaçıların rifahının daha da yaxşılşadırılmasını nəzərdə tutur. Eyni zamanda, qanun layihəsinə görə, minimum və orta aylıq pensiyanın məbləğinin yüksəldilməsini nəzərdə tutulur. ”Ölkəmizdə bütün növ pensiyaların məbləği 370 manata yaxınlaşır. Pensiyaların məbləğinə görə Azərbaycan MDB ölkələri arasında ilk yerlərdən birini tutur”,- deyə nazir müavini qeyd edib.

Qeyd etməliyik ki, son 1 ildə dünyada baş verən proseslərlə bağlı bir çox məhsulların qiymətində artım baş verib. Gündəlik tələbat məhsulları, xüsusən də, ərzaq məhsullarının qiymətində xeyli bahalaşma qeydə alınıb. Nəticədə, əhalinin aztəminatlı hissəsinin sosial vəziyyəti çətinləşib. Bunun qarşısını almaq üçün ilk növbədə maaş və pensiyaların artırılmasına ehtiyac var idi. Artıq pensiyaların artırılması üçün işə başlanıb. Şübhə yoxdur ki, əməkhaqlarının da artımı ilə bağlı müvafiq qərar veriləcək. Bundan başqa, maaş artımlarının dövlət büdcəsindən əməkhaqqı almayan işçilərin, özəl sektorda və sair yerlərdə işləyən işçilərin də əməkhaqında artımın olması üçün hazırda 300 manat təşkil edən minimum əməkhaqqının artırılmasına ehtiyac var. Bu artımlar edilsə, əhali inflyasiyanın təsirindən sığortalanmış olar və sosial vəziyyət daha da yaxşılaşar.

***Elçin Bayramlı***

# Tələbələr daha çox hansı ixtisaslara üz tutur?

**Hər il yüzlərlə gənc təhsil almaq üçün Azərbaycandan kənara üz tutur. Ali təhsili başqa ölkələrdə almaq istəyənlər arasında ölkədəki təhsilə qane olmayıb, daha yaxşı təhsil dalınca gedənlər də var, burada ali məktəbə qəbul ola bilmədiyi üçün bəxtini başqa ölkələrdə sınamaq istəyənlər də.**

Avropa ölkələri arasında ən populyarı Böyük Britaniyada təhsildir. Avropaya təhsil almağa gedən hər dörd tələbədən biri təhsil almağa bura üstünlük verir. Britaniya təhsilinin nüfuzundan danışmadan yalnız onu göstərə bilərik ki, dünyanın ən yaxşı universitetlərinin ilk onluğundakı dörd yerini məhz Böyük Britaniya universitetləri tutur.

Düzdür, Böyük Britaniya təhsil müəssisələri təkcə təhsilin keyfiyyəti ilə deyil, həm də təhsilin yüksək qiyməti ilə tanınır. Təhsil aldığı zaman Krallığının vətəndaşına təxminən 9 min funt-sterlinqə başa gələcəksə, başqa ölkədən olan bir tələbə üçün bu 15 min rəqəmini göstərir. Başqa bir problem də tələbə ölkədə qalmağı planlaşdırırsa, məzun olduqdan sonra iş tapmaq məsələsidir.

Məsələn, Ali Biznes Məktəbinin tələbələri iş perspektivləri ilə ödənişli təcrübə keçmək imkanı əldə edirlər. Təbii ki, universitet seçərkən, məzun olduqdan sonra iş tapan tələbələrin faizinə də diqqət yetirmək lazımdır. Bu göstəriciyə görə Böyük Britaniyanın ilk beş universiteti sırasına daxildir. Neft və qaz sənayesində təhsil əcnəbi tələbələr üçün xüsusilə cəlbedici olur. Avropanın neft paytaxtı sayılan şəhərdə tələbələrin təcrübə keçməsi üçün çoxmillətli şirkətlərinin baş ofisləri və filialları var. Aberdin Universitetində bir illik təhsilin qiyməti təhsil istiqamətindən və dərəcəsindən asılı olaraq 18-20 min funt sterlinqdir.

Britaniya universitetlərinə daxil olmaq və təhsil almaq üçün yüksək səviyyədə ingilis dili vacib şərtdir. Avropa universitetlərində təhsil almağa gələn əcnəbi tələbələr daha çox sosial elmlərə üz tuturlar. Beynəlxalq tələbələrin 36%-i sosiologiya, jurnalistika, biznes, menecment və ya hüququ seçir. Populyarlıq baxımından sonrakı yerlərdə mühəndislik, tikinti və sənaye ixtisasları (17%), üçüncü yerdə mədəniyyət və humanitar elmlər durur (14%).

Sosial elmləri öyrənmək üçün ən populyar ölkələrin Kipr, Lüksemburq və Estoniya olduğunu qeyd edirlər. Avropa Statistika Təşkilatının son məlumatlarına görə, orada 1,6 milyondan çox əcnəbi tələbə təhsil alır. Yarısı bakalavr pilləsində təhsil alan tələbələrin 41%-i magistratura pilləsində təhsil alır. Digər 10%-i beynəlxalq tələbələr AB-də namizədlik dissertasiyası yazır, qalan 3%-i isə qısamüddətli təcrübə proqramlarındadır.

Xaricdə yüksək keyfiyyətli ali təhsil, nüfuzlu diplom güclü beynəlxalq rəqabət şəraitində getdikcə daha çox zərurətə çevrilir. Universitetin yüksək statusu və nüfuzu, müvafiq hazırlıq kursları, praktiki təcrübələr - bütün bunlar müvəffəqiyyətlə iş tapmağa və təhsil almağa kömək edir.



Nüfuzlu universitetlərdə təhsil alan tələbələrin 84%-i gələcək peşələri üçün lazımi bacarıqları əldə edir, 96%-i özlərini daha inamlı hiss edir. Xaricdə təhsil qlobal tendensiyadır və bu tendensiya əmək bazarındakı vəziyyətlə ayrılmaz şəkildə bağlıdır. Belə ki, başqa ölkədə təhsil almaq üçün ən populyar istiqamət biznes və menecmentdir. Onların ardınca mühəndislik, proqramlaşdırma, sosiologiya və həyat elmləri və s. gəlir.

Əcnəbi tələbələr arasında ən populyar sahələr mühəndislik və biznes ixtisasları da yer alır. Bu sahələrdə Avropa ölkələri arasında Hollandiya ingilis dilli proqramlarının ən geniş seçimini təklif edir. Universitet tələbələrə eyni vaxtda bir neçə fənn üzrə ixtisaslaşmağa imkan verir: Elektrik Mühəndisliyi, tətbiqi fizika, kimya mühəndisliyi, biznesin idarə edilməsi və s.

Öz biznesini açmaq istəyən tələblər üçün xüsusilə uyğun olan ölkələrdən biri də Hollandiyadır. Orada *bunun üçün hər cür şərait var: aşağı vergi də*rəcələri, qeydiyyatın asanlığı və dövlət və özəl şirkətlərin maliyyə dəstəyi üçün bir çox yollar mövcuddur.

Almaniyada dövlət universitetlərindəki proqramların əksəriyyəti, xüsusən alman dilindədirsə, pulsuz olur. Bir çoxları tibbi təhsil almaq üçün Almaniyaya gedir. Həkim çatışmazlığından xüsusilə kənd sakinləri əziyyət çəkir. Almaniyadakı tibb universitetləri abituriyentin mənşə ölkəsindən asılı olmayaraq, müsabiqə əsasında abituriyentləri qəbul edir. Ümumilikdə ölkədə 35 tibb universiteti və fakültəsi var.

Çexiya universitetlərində də tələb olunan sahələr təxminən başqa yerlərdə olduğu kimidir - mühəndislik, informasiya texnologiyaları, tibb və s. Bu sahələr arasında tibb mühəndisliyi daha çox məşhurdur. Tədqiqat sahəsinin nailiyyətləri arasında süni orqanların, implant və protezlərin, kardiostimulyator və defibrilyatorların, ultrasəs aparatlarının və kompüter tomoqrafiyasının yaradılması və transplantasiyası var. Tibb mühəndislərinə tələbat artır və Çexiya tibdə texnologiya öyrənmək üçün cəlbedici proqramlar hazırlayır.

ARAŞDIRMA

## Bəs ölkədaxili universitetlərdə oxuyan tələbələrə nəzər yetirdikdə daha çox hansı sahələrə üz tutmağı üstün tutulur?

Demək olar ki, hər növbəti il üçün universitetlərdə bakalavr və magistr pillələri üçün ayrı-ayrı qruplar üzrə yeni ixtisasların adları və bu ixtisasların keçid balları haqqında geniş materiallar dərc olunur, ayrı-ayrı universitetlərdə tədris prosesini təmin etmək üçün müasir auditoriyalar, ən son avadanlıqlarla təchiz olunmuş laboratoriyalar, tədris və elmi ədəbiyyat fondu olan kitabxana, internet şəbəkəsinə qoşulmuş kompüterlərlə təchiz edilmiş otaqlardan istifadə imkanları olduğu barədə məlumatlar yayılır.

Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) təsnifatı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 fevral tarixli 45 nömrəli Qərarı ilə təsdiq edilib . Son iki ildə ”Aerokosmik mühəndislik”,”Aviasiya təhlükəsizliyi mühəndisliyi”, ”Geomatika və geodeziya mühəndisliyi”, ”Beynəlxalq ticarət və logistika”, ”Turizm bələdçiliyi”, ”İctimai təhlükəsizlik və idarəetmə”, ”Fizioterapiya və tibbi reabilitasiya”, ”Tibb və Biotexnologiya”, ”Biznesin idarə edilməsi”, ”İnformasiya təhlükəsizliyi” kimi 20-dən artıq yeni ixtisaslar yaradılıb, bəzi ixtisaslar isə ləğv edilib.

Nazirlər Kabinetinin ”Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin tələbə qəbulu Qaydaları”nda dəyişiklik etməsi təbiidir. Qloballaşma dövründə, kompyuter əsrində yaşayırıq və beynəlxalq təhsil sisteminə inteqrasiya edirik. Problem heç də bu və ya digər hansısa ildə tələbə adını qazanan gənclər arasında deyək ki, tibb, iqtisadiyyat, mühəndislik, texniki fənlərə və yüksək texnologiyalara üstünlük verənlərin olmasında, pedaqoji, aqrar və mühəndisliklə əlaqədar ixtisasları seçənlərin də az olmamasında deyil. Oğlanların və qızların daha çox hansı ixtisaslara meylliliyində də elə bir ciddi fərq olmaması da o qədər önəmli deyil. Problemin kökünü ali məktəbə qəbul olunan minlərlə tələbənin təhsildən imtina etməsinin səbəblərində axtarmaq lazımdır. Xüsusilə son illər elə bir il olmur ki, Ali məktəblərə qəbul olundular, amma imtina ediblər.

## Minlərlə tələbə təhsildən niyə imtina edir?

Bu il tələbə adından imtina edənlərin sayı açıqlanıb. 2300 gəncin universitetlərdən imtinası necə izah oluna bilər? Ali məktəblərin plan yerlərinin boş qalma səbəbləri nədir? və s. bu kimi yazı başlıqları manşetlərə çıxarılır. Təkcə, bu il qəbul imtahanlarında iştirak edib müsabiqə şərtini ödəyən 2 355 nəfər elektron qaydada müraciətlərini təsdiq etməyib.

Bəlkə, bu kimi vəziyyətin yaranma səbəbləri barədə düşünək? Səbəblər aydın olsa da həlli yolları barədə düşünmürük, bəlkə də düşünmək istəmirik. İxtisas seçimindəki dolaşıqlıqlar abituriyenti istədiyi ixtisasa deyil, digər arzulamadığı ixtisasa yönləndirir. Arzuladığı ixtisasa qəbul olmaması isə onu ruhdan salaraq, onu ali məktəbdən imtina etmək məcburiyyəti ilə üz-üzə qoyur. Arzulamadığı ixtisasa qəbul olunması isə gələcəkdə onun iş tapması, özünə karyera qurması üçün problem yaradacaq. Düzgün seçim edilməməsi isə onunla nəticələnir ki, 150-200 balla ali məktəbə qəbul olunursan, 500 balla istədiyin ixtisasa yiyələnə bilmirsən. Ali məktəbə qəbul olub, təhsil almaqdan imtina etməyin başlıca səbəblərdən biri kimi yüksək ödənişlər də öz sözünü deyir.

Əgər, ali təhsilin hamı üçün əlçatan olmasını hədəfləmişiksə, adambaşına düşən ali təhsillilərin sayına görə dünyanın aparıcı ölkələri ilə rəqabət aparmaq fikrinə düşmüşüksə qəbul qaydalarını sadələşdirməliyik. Bir çox ölkələrdə olduğu kimi, buraxılış imtahanları ilə qəbul imtahanlarını birləşdirmək yolu ilə təkpilləli vahid imtahan modelinə keçməliyik. Yox, əgər universitetlərin qəbul planını doldurmaq məqsədinə xidmət ediriksə, bu onların problemidir. Tələb-təklif prinsipindən yararlanmalıyıq. Ali təhsil üzrə qəbul planını artırmaq əvəzinə təhsilin keyfiyyəti yaxşılaşdırılmalıdır.

Ya kəmiyyət, ya keyfiyyət - üçüncü yol yoxdur. Universtetlərimizə nəzər yetirək. Son 10 ildə Azərbaycan Texniki Universitetində (AzTU) ilk dəfə qəbulun nəticələri kəskin şəkildə artıb. Belə ki, 2022/2023-cü tədris ili üzrə AzTU-nun plan yeri 97.62 % dolub. Bu rəqəm ötən il 78% təşkil edib. Bu il 2330 plan yerindən 2274-ü dolub. Boş qalan yerlər bəzi qiyabi və rus bölməsi üzrə olan ixtisaslara aiddir.

Yüksək ballar üzrə qəbulda da ötən illərlə müqayisədə xeyli artım var. Belə ki, 2022/2023-cü tədris ili üzrə AzTU-ya qəbul olunan 4 abituriyent 600-dən yuxarı nəticə göstərib. Onlar arasında ən yüksək nəticə göstərən abituriyent 643,7 balla kompüter mühəndisliyi ixtisası üzrə Ankara Universieti ilə ikili diplom proqramına qəbul olunub.

500-dən yuxarı nəticə göstərənlərin sayı da ötən illərlə müqayisədə dəfələrlə artıb. Tələblərin bu illəri daha çox üz tutduğu ixtisaslar informasiya Texnologiyalara aid olan ixtisaslar, kompüter mühəndisliyi, informasiya təhlükəsizliyi, kompüter elmləri, informasiya texnologiyaları və sairədir. Sonrakı yerdə maliyyə biznes ixtisasları, hüquqşünaslıq, beynəlxalq münasibətlər, Tibb universitetindən tibb sahələri və eyni zamanda 5-ci ixtisas qrupundan dizayn, fiziki tərbiyə məşqçilik ixtisaslarıdır.

Bu il Pedaqoji Universitetdə boş qalan yerlər də olub, təxminən 3000-dən çox boş qalan yer 1 ci, 2 ci turdan sonra qalan yerlərdir. Əmək bazarında kadr çatışmamazlığına daha çox təbii ki, rus dili bölmələrində müəllim çatışmazlığıdır. Ümumilikdə ADPU-da 18300 dən çox tələbə təhsil alır. Böyük əksəriyyəti xanımlardır.

***Havar Şəfiyeva***

**Həddindən artıq qısqanclıq xəstəliyi bir sıra dünya ölkələrində olduğu kimi, ölkəmizdə də xüsusilə, qadınlara qarşı zorakılıq səbəbindən çox mühüm problemdir. Demək olar ki, hər dəfə cinayətkar "Səni çox sevirəm", "Çox qısqanıram" deyərək özünə haqq qazandırmağa çalışanlar var. Bəs, qadının döyülərək öldürülməsinə, bıçaqlanmasına, yandırılmasına, hətta üzərinə beton tökülməsinə səbəb olan bu qısqanclıq necə bir "sevgi" nümayişidir?**



# Psixoloji şiddət, yoxsa qısqanclıq?

## Həddindən artıq qısqanclıq xəstəliyi

Kişilər qısqanclıqla bağlı müzakirələrdə daha eqoist olurlar. Araşdırmalara görə, qısqanclıqla bağlı problemlərdə qadınlar kişilərdən daha konstruktivdir. Qısqanclıqla bağlı müzakirələr zamanı kişilər daha çox eqoist davransalar da, qadınlar münasibətlərdə nizamı və sülhü qorumağa meyllidirlər. Lakin bütün bunlara baxmayaraq, qısqanclığın səviyyəsi qadın və kişi arasında fərqlənmir.

Həddindən artıq qısqanclıq xəstəliyi etibarsızlıq, qeyri-adekvatlıq hissləri, mədəni fərqlər, təhsil səviyyəsi və ya münasibətlərdə zəif ünsiyyətlə əlaqəli ola bilər. Evli cütlüklər, qısqanclığa əsaslanan problemlərdə subaylara nisbətən daha konstruktiv və uzlaşmacı olurlar. Münasibətlərdə zaman keçdikcə belə problemlər getdikcə daha az baş verir. Münasibət nə qədər uzun sürərsə, qısqanclığa reaksiya və qısqanclıqla bağlı mübahisələr bir o qədər az olar.

Həddindən artıq qısqanclıq xəstəliyi alçaldılma və valideynlərin yanlış davranışı patoloji qısqanclığa səbəb ola bilər. Patoloji qısqanclıq kişilərdə daha çox rast gəlinir. Patoloji qısqanc insan, heç bir dəlil olmadığı halda həyat yoldaşının gizli şəkildə onlara xəyanət etdiyinə inana bilər və bu, hal illərlə davam edə bilər.

Patoloji qısqanclıq həm kişilərdə, həm də qadınlarda baş verə bilər, lakin kişilərdə daha çox rast gəlinir və daha çox zorakılıqla nəticələnir. Bu, insanın təkcə tərəfdaşına deyil, həm də özünə zərər verməsi ilə nəticələnə bilər. Patoloji qısqanclığı olan insanlar münasibətdə olduqları adamdan başqa heç kimlə oxşar problemlər yaşamırlar.

## Patoloji qısqanclığın əlamətləri aşağıdakı kimi təsvir edilir:

Bu insanlar partnyorlarının həyatını məhdudlaşdırmaqla başlayırlar. Bu, onun



sosial mediaya girməsinə mane ola, yaxud istifadəsini məhdudlaşdıra bilər.

Münasibətlərdə mübahisələr artıbsa və həddindən artıq qısqanclıq səbəbindən ünsiyyət pisləşibsə, dəstək lazımdır. Həddindən artıq qısqanclıq dərman və psixoterapiya ilə müalicə edilə bilər. Münasibətlərdə bir-birinə güvənmək, ünsiyyətə açıq olmaq və empatiyanı gündəmdə saxlamaq qısqanclığı nəzarət altında saxlamağa kömək edə bilər. Qısqanclıq səbəbiylə mübahisələr artıbsa, ünsiyyət pozulubsa, cütlükərin bir-birinə hörməti və ya düşüncələri mənfi təsirlənməyə başlayıbsa, cütlük olaraq terapiya dəstəyi alınmalıdır.

Həddindən artıq qısqanclıq xəstəliyini sevgi kimi qəbul edənlər sevgi və qayğıdan məhrum olmuş insanlardır. Yəni, qısqanclıq etmək istəyən insanlar əslində sevgisiz və diqqətsiz böyümüş insanlar ola bilər. Yəni sevilməyi "qısqanclıq" kimi görürlər. Ola bilsin ki, laqeyd, səhlənkar valideyn rəftarına məruz qalan və daha çox diqqətə ehtiyacı olan bu şəxslər sevgisiz böyüyüblər. Sevginin olmaması, uyğunsuzluğu və ya ailənin həddindən artıq və boş sevgi sözləri də uşaqların inkişafına mənfi təsir göstərə bilər. Əsl sevginin, düzgün ünsiyyətin nə olduğunu bilməyən və öyrənməyən uşaq gələcəkdə insan münasibətlərindəki səhvləri birbaşa ayıra bilməyə bilər. Məsələn, əgər oğlanın atası anasını qısqanırsa və onun azadlığını məhdudlaşdırırsa, uşaq gələcəkdə sevgini "qadının sahibi olmaq"la səhv sala bilər.

## Həddindən artıq qısqanclıq "çox sevmək"dən qaynaqlanmır

Son zamanlar qadınlara qarşı zorakılıq, hətta qətl hadisələrinin izahı həmişə eynidir: "Onu sevirdim", "Çox qısqanırdım". Ancaq ekspertlərin fikrincə, qısqanclıq sevgi nümayişi deyil.

Qısqanc insanlar zaman-zaman qısqanclıqlarını məntiqi bir səbəbə bağlamaq üçün qarşıdakı insana dəyər verdiklərinin bir əlaməti olaraq ifadə edə bilərlər. Qısqanclığın həddən artıq sevgidən qaynaqlandığı və bu qədər sevgi səbəbiylə qısqancın davranışının idarəolunmaz olduğu kimi bir fikir var. Qısqanc tərəfin "sevgidən kor oldum" kimi klassik ifadələrini tez-tez eşidirik. Əslində, belə deyil.

Münasibətlərdəki məhdudiyyətlərin sevgidən olmadığını qəbul edərək, altda fərqli problemlər var və bu vəziyyət düzgün ünsiyyət və ya münasibət terapevti ilə həll edilməlidir. Əks halda, vəziyyət daha mürəkkəbləşə və ya, bu səbəbdən münasibətlər bitə bilər.

Cəmiyyətimizdə qadınlara qarşı zorakılıq getdikcə artmaqdadır. Ancaq təəssüflər olsun ki, yenə də qadınlar buna görə qadınlar günahlandırılır və yenə də qadınlar oğlan uşaqlarını zorakılıq tərəfdarı kimi böyütməkdə günahlandırılırlar. Bəs ataların heç bir günahı yoxdur? Uşaq böyüdərkən təkcə anaların deyil, ataların da böyük rolu var.

## Atalar üçün bəzi tövsiyələr:

- Ata evdə anaya olan hörməti önə çəkməli və bu mövzuda uşaqlara nümunə ol-



malıdır. Ailədəki bütün qadınlara hörmət etməlidir.

- Oğlan və qız uşaqları arasında fərq qoymamalıdır.

- Oğlan və ya qızlara cinsini vurğulayan ləqəblər qoyulmamalıdır.

- Valideynlər həyatının ilk illərində oyuncaqlarda, kurslarda və ya fəaliyyətlərdə cinsi oriyentasiya etməməlidir. (Oğlanları döyüş sənətinə yönəltmək, daim silah və ya əsgər kimi oyuncaqlar seçmək kimi)

- Ata ailədə, ev işlərində, uşaqların baxım və tərbiyəsində fəal rol almalı, xidmət gözləməməlidir. "Qadın işi" və "kişi işi" kimi fərqlərdən uzaq olmalıdır.

## Uşaqları qısqanclıq və zorakılıqdan azad böyütmək üçün ailələrə tövsiyələr:

- Uşaqlar 3 yaşından sonra ailədə müəyyən dərəcədə və müəyyən məsələlərdə söz sahibi olmalıdır.

- Uşaqlar mümkün qədər valideynlərinin mübahisələrinə şahidlik etməməlidir.

-Ailədə valideynlər bir-birlərinə qarşı hörmətli, anlayışlı olmalı və bunu övladlarına da əks etdirməlidirlər.

- Uşaq ana ilə ata arasındakı bağı hiss etməlidir. Bilməlidir ki, ailədə "uşaq" var.

- Uşaqları heç bir səbəbə görə alçaltmaq, təhqir etmək olmaz.

- Valideynlər bəzən tətilə və ya qısamüddətli səfərlərə gedəndə bu vəziyyəti uşaqlardan gizlədirlər ki, uşaqlar problem yaratmasın. Bu, uşaqlarda tərk edilmə hissi yarada bilər. Yaşına uyğun ünsiyyət tərzi olan uşaqlara hər bir vəziyyəti izah etmək olar. Cavabsız və ya izah edilməmiş, gizli məsələlər uşaqların beynində səhv cavablara səbəb ola bilər. Bu vəziyyət onların gələcək həyatına mənfi təsir göstərə bilər.

- Uşağa kişi olmağın bir imtiyaz olduğu öyrədildikdə, onun ətrafdakı qadınlara, o cümlədən anasına hörməti azalacaq və bu, onun sosial və ya iş münasibətlərində də özünü göstərəcək.

*Ardı Səh. 13*

Əvvəli Səh. 12

- Oğlanları ucaltmaq, onları qonşu uşaqları ilə yarışdırmaq və bunu qızların yanında ”Sən şirsən”, ”Sən pələngsən”, ”Sən kişisən” kimi sifətlərlə etmək uşaqların inkişafı üçün kifayət qədər qeyri-sağlamdır.

- Sünnət mərasimlərinin şişirdilməsi, uşaqların ”taxtda” daşınması, uşağın həyatının ilk illərində ”kişilik” anlayışının bu qədər qabardılmasına verilən önəm, valideynlər tərəfindən kişilərin ağlamasını zəiflik kimi öyrədilməsi kimi səhvlər uşağın şəxsiyyətini, psixologiyasını və sosial münasibətlərə olan inancları pozur.

SİA mövzu ilə bağlı araşdırma apararaq dünyada qısqanclıq üzrə olan qətllərə diqqət yetirib.

Yunanıstanda 2021-ci ildə 13 qadın məişət zorakılığının qurbanı olub. Bəzilərini sevgilisi, bəzilərini isə keçmiş həyat yoldaşı tərəfindən silahla öldürülüb. Qatil pul üçün öldürdüyünü deyib.

**Qarufaliya:** İyunun 16-da Foleqandros adasında istirahət edən Qarufaliyanın cəsədi dənizdə tapılıb. Onun 30 yaşlı sevgilisi dava etdiklərini, daha sonra qadını qayadan dənizə atdığını etiraf edib.

**Anisa:** İyulun 30-da Alban əsilli Anisa Afinadakı evində 39 yaşlı əri tərəfindən 20 bıçaq zərbəsi alıb. Alban əsilli qatil ”Onun mənə xəyanət etdiyindən şübhələnirdim” deyib.

Avqustun 3-də Larisa şəhərinin Sotirica şəhərində N.T. işlədiyi restorana gedərək ayrıldığı 43 yaşlı arvadını tapança ilə 8 atəş açaraq öldürüb. O, həyat yoldaşını boşanma davasına görə öldürdüyünü deyib.

**Stavrula:** Krit adasında 47 yaşlı qadın qızının gözü qarşısında ov tüfəngi ilə öldürülüb. 49 yaşlı qatil daha sonra intihar edib. Məlum olub ki, qadın kişinin münasinayətlərini Dayandıracağıq Platformasının (KCDP) məlumatlarına görə, 2008-ci ildə 80, 2009-cu ildə 109, 2010-cu ildə 180, 2011-ci ildə 121, 2012-ci ildə 210, 2013-cü ildə 237, 2014-cü ildə 294, 2014-cü ildə 294, 2009-da 109, 2010-da 180, 2008-2019-cu illərdə Türkiyədə 328, 2017-ci ildə 409, 2018-ci ildə 440, 2019-cu ildə 474 qadın öldürülüb.

2022-ci ilin yanvar ayında 26 qadın kişilər tərəfindən öldürüldü, 28 qadın şübhəli şəkildə ölü tapıldı. Qeyd edək ki,Türkiyədə qadın qətllərinin qarşısını almaq üçün 12 ildir ki, mübarizə aparılır.

- Qadın qətlləri əyalətlər üzrə daha çox İstanbulda, rayonlar üzrə isə Seyhanda (Adana) baş verib.

- Qadın qətllərinin bir nömrəli günahkarı ər olub. Türkiyədə 10 ildə öldürülən 2534 qadından 1113-nün cinayətkarı onun əri olub.

- Hər 5 qadın cinayətindən 1-i boşandə cinayətkarın sevgilisi, 176 qadın qətlində keçmiş ər, 82 qadın qətlində isə keçmiş sevgilisi olub.

Qadın qətli törədənlərin siyahısında keçmiş ərdən sonra qohum dördüncü yerdədir. 10 ildə 169 qadın qohumları, 111 qadın ataları, 104 qadın isə qardaşları tərəfindən qətlə yetirilib. Bundan başqa, qadınların 79-u oğulları, 64-ü kürəkəni, 12-si isə qayınatası tərəfindən qətlə yetirilib. Bu o deməkdir ki, hər 5 qadından biri ailəsi və ya qohumları tərəfindən öldürülür.

Bundan başqa, 10 ildə 231 qadın iş və ya məhəllə münasibətlərinə görə tanıdıqları kişi, 89 qadın isə tanımadığı kişi tərəfindən öldürülüb.

Mediada əks olunan qadın cinayətlərinin əhəmiyyətli bir hissəsində qətlin bəhanəsi müəmmalı olaraq qalıb. Ən azı 299 qətldə qadınların ayrılması/boşanması istəyi, 205 qətldə dələduzluq şübhəsi bəhanə kimi təqdim edilib, 69 qətldə isə qadın kişinin barışıq tələbini rədd etdiyi üçün öldürülüb.



# Psixoloji şiddət, yoxsa qısqanclıq?

daşı öldürüb. Qətllərin əksəriyyəti qısqanclıq və ya tərk edilmək zəminində törədilib. Zərərçəkənlərin yaxınları polisin məişət zorakılığına lazımi diqqət göstərməməsindən, qanunlarda ağır cəzaların nəzərdə tutulmamasından şikayətlənir. Həmin qadınların hekayələrini təqdim edirik:

**Vasiliki:** Yanvarın 17-də Krit adasında 14 yerindən bıçaq zərbəsi ilə öldürdü. Qatil qadını keçmiş həyat yoldaşından qısqandığını bildirib.

**Konstantina:** Aprelin 5-də 30 yaşlı D.R. döyülməyə dözməyib və 2 yaşlı uşağı ilə atasının evində məskunlaşan 28 yaşlı arvadı Konstantina Tsapa və böyük qardaşı Yorqonu bıçaqlayaraq öldürüb.

**Karolain:** Mayın 11-də pilot Babis Anaqnostopulos həyat yoldaşı Karolaini körpəsinin qarşısında yastıqla boğub. O, boşanmaq istədiyi üçün həyat yoldaşını öldürdüyünü etiraf edib.

**Eleni:** 4 iyunda 2 uşaq və 2 nəvəsi olan 64 yaşlı Eleni Pireydə evindən çıxarkən 75 bət təklifindən imtina etdiyi üçün öldürülüb.

**Eleni:** Avqustun 23-də Gürcüstandan olan Eleni Salonikidəki evində qanlar içində tapıldı. Eleninin həmyerlisi və sevgilisi olan 48 yaşlı sevgilisi yoxa çıxıb.

**Monika:** Sentyabrın 4-də Kiparisia şəhərində Rumıniyalı Monika Giusun meyiti qaldığı evin həyətində, sementlə örtülmüş çuxurda tapılıb. İnterpol vasitəsilə Rumıniya sevgilisi axtarılır.

**Nektaria:** Oktyabrın 29-da Krit adasında 4 uşaq anası Nektariya ayrıldığı 54 yaşlı əri tərəfindən bıçaqlanaraq öldürüldü.

Qeyd edək ki, Yunanıstanda cinayət məcəlləsində məişət zorakılığı ilə bağlı ayrıca maddə yoxdur. Cəzalar 15 ildən ömürlük həbsə qədərdir. Günahkarlar ən yaxşı halda 10-12 ildən sonra sərbəst buraxıla bilər.

**Türkiyə:**

Türkiyədə 10 ildə ən az 2 min 534 qadın kişilər tərəfindən öldürülüb. Qadın Cima/ayrılma mərhələsində baş verib.

- Öldürülən hər 5 qadından 1-i zorakılıq qurbanı olub.

- Zorakılığa məruz qalan hər 10 qadından 6-sı təhlükəsizlik məqsədilə mühafizəyə müraciət edib.

- Qadın qətli daha çox evdə və odlu silahla törədilib.

Araşdırmaya görə, qadın qətliamları ən çox İstanbul (347), İzmir (176), Ankara (135), Adana (125) Antalya (110), Antep (105), Bursa (94), Mersin (79), Konyadır. (76) və Kocaelidə (71) işlənib. Bu 10 əyalətdə 10 il ərzində ən azı 1318 qadın öldürülüb.

Bağcılar (22), Esenyurt (22), Fatih (21), Küçükçekmece və Bağcılar (20) İstanbulda qadın cinayətlərinin ən çox olduğu ilk dörd rayon olub. Ankarada qadın cinayətlərinin ən çox olduğu rayonlar Keçiören (28), Mamak (24) və Çankayadır (19); İzmirdə Buca (24), Konak (22) və Karabağlar (22) oldu.

Türkiyədə 10 il ərzində 1113 qadın qətlində cinayəti törədən əri, 285 qadın qətlin…

Ən azı 127 qadın ev işləri görməmək, kişilərə yaxşı baxmamaq, baxımlı olmamaq, səhərlər kişini oyandırmamaq kimi məişət cins rollarını yerinə yetirmədikləri üçün öldürülüb. Bura paltar almaq, evə gec gəlmək, telefonla danışmaq, incimək və ya gülmək də aiddir.

### Dünyada qadın cinayətləri ən çox hansı ölkələrdə baş verir?

Pakistan dünyada qadınlara qarşı zorakılığın ən çox olduğu ölkədir. Bu nisbət Seneqalda 78, Yəməndə 67, Əfqanıstanda isə 61 faizdir.

***Ayşən Vəli***

## Viruslar insanları daim izləyir - Hücum üçün vaxt gözləyirlər



Onların ətraf mühiti izləmək qabiliyyəti var. Viruslar nə vaxt yoluxacaqlarını, orqanizmdə nə qədər sakit qalmaq və nə vaxt xaricə çıxmaq seçimini edə bilir. Alimlər onların çox güclü müşahidə bacarığının olmasına təəccüb ediblər. Onlar müstəqil olaraq qərar qəbul edirlər: orqanizmdə gizlənib yuxuya getsin, ya aktivləşib əlamətlər versin, ya da böyüsün. İnsan hüceyrəsinə keçmək üçün onlar ətraf mühitdən informasiya alıb, özlərinə uyğun təhlil edirlər.

Ona görə viruslara qarşı mübarizə, peyvənd və dərman tapmaq çətindir. Daşıyıcı ilə virus arasında çox zehni, ağıllı bir əlaqə var. Alimlər hesab edir ki, hazırda viruslar öz mənafeləri üçün istənilən mövqeni seçib, insanı belə aldada bilir. Alimlər onların bu xüsusiyyətinə qarşı mübarizə metodu tapmağı düşünür. Gələcəkdə bu xassəni onların əksinə çevirmək olar. Yeni elmi tədqiqatda bakterofaqlardan istifadə olunub. Məlum olub ki, bakterofaqlar sahib olduqları orqanizmdə hüceyrələrin aktivliyini izləyə bilir.

## Alla Puqaçova Rusiyanı tərk etdi

SSRİ Xalq artisti Alla Puqaçova Rusiyanı tərk edib. SİA xarici mətbuata istinadən xəbər verir ki, ehtimallara görə, sənətçi əri, şoumen Maksim Qalkindən (Rusiya Federasiyasında xarici agent kimi tanınıb) iki övladı ilə birlikdə Moskvanın Vnukovo hava limanından İsrailə uçub.



***Ayşən Vəli***

## “Azərbaycan bütün istiqamətlərdə son sözünü deyib”

“Revanşist qüvvələr Ermənistanın istər özündə, istərsə də xaricində kifayət qədər çoxdur. Bu qüvvələrin əsas mərkəzləri Kaliforniya ştatı, Amerika, Yunanıstan, Portuqaliya və Fransadadır”. Bu sözləri SİA-ya açıqlamasında deputat Rüfət Quliyev deyib.

Onun sözlərinə görə, bu ölkələrdə varlı ermənilər və diaspora var: ”Onlar bu oyunu pozmaq istəyirlər. Ümumiyyətlə, erməni xalqını idarə edən rəhbərlik ayılmalıdır. Onlar sanki yuxudadır və məğlubiyyəti unudublar. Onlar başa düşmür ki, Azərbaycan bütün istiqamətlərdə son sözünü deyib. Bu son sözü də bütün dünya qəbul edib və dəstəkləyib. Mənim erməni xalqına yazığım gəlir. Onları nağıllarla aldadıblar”.



Deputat sözlərinə belə davam edib: ”Mən, tam olaraq Azərbaycan hakimiyyətinin mövqeyini dəstəkləyirəm. Ermənilərin üzərində həmişə o Dəmir Yumruq olmalıdır. Çünki bunlar dinc dayanan deyillər. Ümidim onadır ki, erməni xalqı Paşinyanı müqaviləni imzalamağa məcbur edəcək. Artıq iki ildir ki, bu müqavilə masa üzərindədir. Dünya da bu məsələnin həll olunmasının tərəfdarıdır. Lakin, sülh müqaviləsindən sonra da Ordumuz daim hər şeyə hazır olmalıdır. Onlar dinc dayanan adam deyillər. Onlar yenə oyun çevirəcəklər. Bu onların millət olaraq ümumi xəstəliyidir”.

***Ayşən Vəli***

SİYASİ RAKURS+ÖZƏL

# ABŞ-ın "canfəşanlığı" - bəs məqsədi nədir?

*Bütün hallarda rəsmi Vaşinqton Azərbaycanın irəli sürdüyü tələblərinə sayğıyla yanaşmalı və ölkəmizin regional maraqlarına qarşı əks mövqe sərgiləməkdən, yaxud Ermənistanın təxribatçı əməllərinə özünəməxsus don geyindirməkdən yayınmalıdır*

**Sayca 4-cü Brüssel görüşündən sonra Ermənistanın Azərbaycana qarşı sonuncu təxribatı mövcud danışıqlar trayektoriyasının dəyişilməsi ilə müşahidə olundu. Artıq Vaşinqton Avropa İttifaqını kənara itələməklə Ermənistanla Azərbaycan arasındakı məlum münasibətləri normallaşdırmaq vəzifəsini öz üzərinə götürdüyünü nümayiş etdirməyə çalışır. Halbuki, 12-14 sentyabr hadisələrinə qədər ABŞ-ın üst siyasi dairələri Brüsselin fəallığını dəstəkləyir, həmin istiqamətdə atılan addımlara dəstək göstərdiyini bəyan edirdilər.**



### Ola bilsin ki, Vaşinqton təşəbbüsü Brüsseldən almaq üçün öz maraqlarını işə alıb

Maraqlıdır ki, məhz Nensi Pelosinin İrəvana səfərinin ardınca Ermənistan rəhbərliyi yenidən əvvəlki, hətta belə desək, 2020-ci ilin 27 sentyabrına qədərki ritorikasına geri qayıtdığını açıq nümayiş etdirməyə başlayıb. Bunun ardınca isə ABŞ-ın dövlət katibi Entoni Blinkenin, habelə Pentaqon rəsmilərinin fəallığı müşahidə edilir. Etiraf edək ki, bu amilləri həm də əvvəlcədən planlaşdırılmış cəhd kimi də göstərə bilərik. Yəni proseslər özü-özündən inkişaf etmir. Ola bilsin ki, Vaşinqton təşəbbüsü Brüsseldən almaq üçün öz maraqlarını işə alıb. Lakin bu maraqların tərəfsizliyinə, səmimiliyinə inanmaq əslində bir qədər çətindir, xüsusilə Nensi Pelosinin Ermənistana səfərindən sonra.

### ABŞ eyni zamanda, Azərbaycanın da maraqlarına xüsusi önəm ayırmalı, Bakının nəinki regional, həm də dünyəvi əhəmiyyətini nəzərə almalıdır

Dünyada baş verən və bir-birini tez-tez dəyişən hadisələrin fonunda daha bir faktor da dayanır - Rusiyanın Ukraynada hərbi əməliyyatları və Moskvanın Cənubi Qafqaz regionuna diqqət ayırması imkanının azalması. Biz burada Baydenin Nikol Paşinyana Ermənistanın "müstəqillik günü" münasibəti ilə göndərdiyi məktubundakı bəzi məqamları da diqqətə ala bilərik. Həmin məktubda ABŞ prezidentinin "rifah və dinc gələcək naminə Ermənistanın qonşuları ilə münasibətləri normallaşdırma"lı olması fikirləri yer alıb. Yəni ABŞ dərk edir ki, Ermənistanın Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırması onun Rusiyadan iqtisadi və təhlükəsizlik baxımından, o cümlədən, enerji resursları cəhətindən asılılığını aradan qaldıra bilər. Lakin ABŞ eyni zamanda, Azərbaycanın da maraqlarına xüsusi önəm ayırmalı, Bakının nəinki regional, həm də dünyəvi əhəmiyyətini nəzərə almalıdır. Birtərəfli qaydada gedişlər etmək isə sadəcə boş əmək sərfidir desək, heç də yanılmarıq. Məhz bu baxımdan, Birləşmiş Ştatların dövlət başçısının regional proseslərə ikiqat daha çox diqqət ayırmaq niyyətində olmasını öz məktubunda qeyd etməsi arxasında daha bir məqam dayanır - bu məqam həmin strateginanın Azərbaycana necə təsir göstərməsi sualının yaranmasıdır...

### Vaşinqton digər regionlarla yanaşı, Cənubi Qafqaz regionu ilə də bağlı məqsədlərinin nədən ibarət olduğunu tam təfsilatı ilə bəyan etmir

Bəli, bunun müsbət yönü ola bilər, amma mənfi cəhətlərinin də olduğunu unutmamalıyıq. Müsbət cəhət mövcud vəziyyətin normallaşdırılması və tənzimlənməsidir. Lakin ABŞ-ın səmimiliyinə inamın az olmasının tərəflərindən biri budur ki, Vaşinqton digər regionlarla yanaşı, Cənubi Qafqaz regionu ilə də bağlı məqsədlərinin nədən ibarət olduğunu tam təfsilatı ilə bəyan etmir. Təkcə növbəti bir fakta da diqqət yetirsək bunun şahidi olarıq. Məsələn, Baydenin yuxarıda qeyd edilən təbrik məktubunda "Dağlıq Qarabağ" və "münaqişə" ifadələri yer alıb. Halbuki, Azərbaycan Prezidenti İlham Əliyev bu ifadələrin artıq tarixdə qaldığını bəyan edib. Həmçinin, Azərbaycan üçün "Dağlıq Qarabağ" adlı ərazi vahidinin olmadığını bildirib, üstəlik, Qarabağ Azərbaycanın iqtisadi zonası olaraq bəyan edilib. Baydenin belə bir məsələni diqqətə almaması təəccüb doğurur və bununla yanaşı, ABŞ-ın Azərbaycana yönəlik siyasətində qeyri-səmimiliyi nümayiş etdirir.

Təbii ki, Bakı əsla Vaşinqtonun bu cür davranışını qəbul edə bilməz və etməyəcək də. Yəni Azərbaycan ABŞ-ın bu kimi rəsmi mövqeyinə düzəlişlərin edilməsi üzərində cəhdlərini artırmaqda davam edəcək. Bütün hallarda rəsmi Vaşinqton Azərbaycanın irəli sürdüyü tələblərinə sayğıyla yanaşmalı və ölkəmizin regional maraqlarına qarşı əks mövqe sərgiləməkdən, yaxud Ermənistanın təxribatçı əməllərinə özünəməxsus don geyindirməkdən yayınmalıdır.

***Rövşən RƏSULOV***

## Dünən Rostov, bu gün Novosibirsk...yana-yana gedir...

Dünən, sentyabrın 29-da səhər saatlarında Novosibirsk sakini çağırış lövhəsini yandırmağa cəhd edib. O, saxlanılıb. SİA-nın əldə etdiyi məlumata görə, bu barədə "Novosibir" teleqram-kanalı Novosibirsk vilayətinin hərbi komissarı Yevgeni Kudryavtsevə istinadən məlumat yayıb.

Hərbi komissarın sözlərinə görə, hərbi komissarlığın iki pəncərəsinə molotov kokteyli atılıb - nəticədə binanın çöl hissəsində 0,5 kvadratmetrlik sahədə yanğın baş verib. Yanğın tez bir zamanda söndürülüb, hərbi komissarlığın əmlakına və binalarına ziyan dəyməyib. Amma şübhəli şəxs həbs edilib və hazırda əməli ilə bağlı araşdırma aparılır. Bu arada "Baza" rus onlayn nəşri Rostov vilayətindəki rayon administrasiyasının binasının yandırılması barədə xəbər yayıb.

Qeyd edək ki, burada da yanğının naməlum şəxs və ya şəxslər tərəfindən "Molotov kokteyli"ndən istifadə edilərək törədildiyi bildirilir. Beləliklə, burada yanğından gec xəbər tutulub deyə, idarənin ofislərindən biri tamamilə yanıb külə dönüb.

Maraqlıdır ki, artıq rus saytları da təəccüblərini gizlədə bilmirlər. Yəni, doğrudanmı, ölkənin az qala yarıdan çoxu fərari imiş? Qeyd edilməlidir ki, Rusiyanın Ukraynaya təcavüzündən sonra Rusiyanın hər yerində hərbi komissarlıqlar, polis idarələri və şəhər administrasiyasının binaları yandırılır. O da maraqlıdır ki, hələ gizlədilənlər bir yana, amma ən azı 40-dan çox yanğın cəhdi barədə mıumatlar verilib. Yeri gəlmişkən, yandırmada şübhəli bilinərək saxlanılan şəxslər barəsində,.. yox, yox hələ ki, güllələmirlər. Onlar barəsində, hələlik özgənin əmlakına qəsdən zərər vurma və terror aktı maddələri ilə cinayət işi açırlar.

***Ağasəf Babayev***



İLHAM

# Kənddə qaldı uşaqlığım

Hər bəşər övladının şirinli-acılı xatirələrlə dolu ömrü olur. Olur ki, kimsə çoxlarının qibtə ilə baxdığı vəzifə və ya iş adamı mərtəbəsinə yüksələnə qədər, dəfələrlə büdrəyir, amma yıxılmayır, qamətini və qəddini düzəlməklə arzu etdiyi məqsədinə doğru irəliləyib. Elələri də olur ki, "nə yoğurdum, nə yapdım, hazırca kökə tapdım" məsəlinə uyğun olaraq kiminsə və nəyinsə hesabına vəzifə pilləsində oturur, ya da adlı-sanlı biznesmenə çevrilir. O gün hazırca kökə əldə edənlərdən biri olmuş bir (indi həbsxana həyatı yaşıyır. İ.Ə.) zadın müsahibəsinə rast gəldim. Şəxs iddia edir ki, 26 yaşı olanda, artıq onun 100 milyon manat pulu vardı. Açığı, sətirləri oxuyarkən caşdım, ani düşündüm ki, yanlış oxudum, gözlərimi ovuşdurub bir daha cəhd etdim, bəli, səhv oxumamışdım - 100 milyon manat. Səmimi deyəcəm, mən o yaşda olanda cibimdə nəinki 100 manatım, heç 10 manatım olmayıb, bu zadın isə 26 yaşı olanda 100 milyon manatı olub. Nə isə   Bəli, həyatda elə insanlar da olur ki, ömrünü çətinliklərlə, faciələrlə keçirir. Maddi və mənəvi sarsıntı bir yana, müxtəlif xəstəliklər o insanı haldan salır, yaşamağı davam etdirmək arsuzuna suallar yaradır. Vay o günə ki, maddi və mənəvi çətinliklər fonunda, öyüd-nəsihət verən əzizlərindən də məhrum olasan. Bax, o zaman sənin üçün ağır və məşəqqətli anlardır. Düşünürəm ki, hətta bu halda belə həyatdan küsməyə, özünə və ümidsizliyə qapanmağa dəyməz. Həyatın enişli-yoxuşlu yollarında çətinliklərə dözüb, mübarizə aparmaq və şərəfli bir ömür yaşayıb qaliblərdən olmaq lazımdır. Bəli, çətindir, amma mümkündür...

İstər varlı, istər kasıb, istərsə də vəzifə mənsubları olan orta və yaşlı insanla söhbət etsəniz, uşaqlığından danışacaq, vurub-yıxan, qocaq və dəcəl uşaq olmasından dəm vuracaq. Sonda da deyəcək ki, kaş atalı-analı o günlərə yenidən qayıda biləydim. Ancaq arzular sadəcə xəyaldı, keçən günə gün çatmaz, calasan günü-günə. Artıq zamanın təkəri fırlanıb və uşaqlıq gəncliyi, gənclik də yerini ömür xəzanına verib. Yaddaşlarda qalan isə uşaqlığın gözəl xatirələridir. Gəldiyim qənaət ondan ibarətdir ki, ən gözəl uşaqlıq elə kəndlərdə keçir. Bəlkə də səhv edirəm, uşaqlıq həyatı üçün şəhərlər daha rəngarəngdir. Lakin dahilərin və söz ustadlarının fikirlərinə əsalanaraq demək olar ki, uşaqlar kəndlərdə daha rahat, firavan, qayğısız, həm də kiçik ömür yolunu maraqlı keçirirlər. Birinci növbədə, kənd uşaqları şəhər uşaqlarına nisbətən daha dəcəl və dalaşqan olurlar. İkinci də, kənd uşaqları şəhər uşaqlarına nisbətən gəzməli, görməli yerlərdə daha çox vaxt keçirirlər. Yadıma gəlir, yaz-yay aylarında biz səhər açılar-açılmaz meşəyə üz tutar, meyvədən yığıb, çaya enirdik. Çayın qarşısını daşlarla kəsib, su hovuzu yaradıb, deyib gülə-gülə çimirdik. Heç zaman yemək-içmək haqqında düşünməzdik. Təbiətin gözəlliyi fonunda, Allahın verdiyi meyvələrdən qidalanıb, şən həyatımızı davam edirdik. Uşaq vaxtı müxtəlif oyunlar oynamaqda, kənd həyatının ən maraqlı anlarından sayılırdı. Oyunlar fərqli olurdu. Deyək ki, bir ay çilingağac, növbəti ay, şaşgı-şaşgı, başqa bir ay taxtadan düzəldilən qılınclarla qılınc-qılınc oyunları olurdu. Təpələrdə mövcud olan təbii səngərlərdən istifadə etməklə, dava-dava oyunları da uşaqlıq həyatının diqqətçəkən oyunlarından hesab olunurdu. Qış fəslində isə, qarın gəlişini səbirsizliklə gözləyirdik. İlk qarın yağması isə üzlərə təbəssüm, gözlərə sevinc gətirirdi. Sanki qar yağan zaman evdə oturmaq qəbahət sayılırdı. Həyətlərə çıxmaq, qonşu uşaqlarla birlikdə, kəndin ortasına gedib, qartopu oynamaq və ya Şaxtababa heykəli qurmaq adət halına çevrilmişdi. Başımız qartopu oynamağa elə qarşırdı ki, böyüklərin bizi evə səsləməsini eşitmirdik. Yalnız böyüklərin bizə yaxınlaşıb, qolumuzdan tutub, silkədikdən sonra, başımızı qaldırıb, evə getmək vaxtı olduğunu anlayırdıq. Təbii gölün donması zamanı da sürüşmək üçün əla fürsət yaradırdı. Ancaq bir problem vardı ki, əksər hallarda buz sınır, sinəmizə qədər suya düşürdük. Ancaq heç zaman qorxu-hürkü bilmirdik. Dəfələrlə buzun sınması səbəbindən suya düşməyimizə baxayarq, təkrar səhərisi gün gölə gəlib, buzda sürüşməyə davam edirdik. Yadıma bir xatirə düşdü. Deməli, göldə buzun üzərində sürüşdüyüm zaman, buz sındı və mən suya düşdüm. Elə bir vaxt gəldi ki, mühüm hadisə baş verdi, mənə isti ayaqqabı aldılar. Dönə-dönə tapşırdılar ki, gölə gedib buzda sürüşmə. Buz sınsa və suya düşsən, ayaqqabı zay olacaq. Yaxşı, oldu, - dedim. Uşaqlarla qartopu oyununda sonra gölə gəldik, balaca dostlarım buzda sürüşüb rəqs edir, xokkey oynayırdılar, mən isə kənardan dayanıb, böyük iştah və həsrətlə bir sürüşən uşaqlara, bir də təzə ayaqqabıma baxırdım. Nəhayət, hərəkətə keçib, asta-asta buza yaxınlaşdım, az sonra artıq buzun ortasında müxtəlif oyunlar oynayırdım. Hər kəs kimi yorulub, gölü tərk edəndə, sevinirdim - mən suya düşməmişdim, ayaqqabım da elə təzə olaraq qalırdı. Beləcə, uşaqlığımızı keçirdik. İndi fikir verirəm, həm də maraqlanıram, müasir dövrün uşaqları bizm yaşadığımız uşaqlıq həyatından tamam fərqli ömür yaşayırlar. Sanki uşaqlar elə, birdən-birə böyüklərə çevrilirlər. Hərdən də fikirləşirəm ki, yəqin elə belə də davam edəcək. Gələcək uşaqlar da indikilər kimi çilingağac, şaşgı-şaşgı, qılınc-qılınc, gizlənpaç, aşıq-aşıq, çilədi və digər oyunları oynamayacaq. Belə olsa, vay uşaqların halına. Ancaq yazını yekunlaşdıran məqamda Qismət adlı iş yoldaşım, dedi ki, bazar günü İsmayılıdan gələndə Diyallı kəndində uşaqların çilingağac oynadıqlarını görüb. Sevindim, gözlərimə işıq gəldi, deməli, uşaqlar sosial şəbəkələrdən imtina edib, uşaqların oynadıqları oyunları oynamağa qayıdırlar. Axı deyirlər ki, uşaqlar ağıllı olurlar. Maksim Qorki demişkən, uşaqlar böyüklərdən əksər hallarda daha ağıllı və həmişə səmimi olurlar.

# Rusiyalı ekspert: “Qərbin dəstəyi Ermənistana kömək etməyəcək”

**Stanislav Pritçin: Ermənistan üçün strateji vəziyyət ağırdır, Azərbaycanla danışıqlar prosesinin başa çatdırılması məsələsini hansısa yolla həll etmək lazım gələcək**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” çərçivəsində hazırlanıb.

Tanınmış rusiyalı ekspert, Rusiya Elmlər Akademiyasının Primakov adına Dünya İqtisadiyyatı və Beynəlxalq Münasibətlər İnstitutunun (İMEMO) Postsovet Araşdırmaları Mərkəzinin




baş elmi işçisi, tarix elmləri namizədi Stanislav Pritçin ”Caliber” analitik mərkəzinə müsahibəsində regionda yaranmış vəziyyət və gedən proseslər haqda maraqlı fikirlər səsləndirib. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Amerikalı spiker Nensi Pelosinin İrəvana son səfərinin Ermənistanı Qərbdən yardım almaqda və ölkənin KTMT-dən çıxmasında böyük dərəcədə həvəsləndirdiyi fikrini bölüşürsünüzmü?***

- Bu doğru olsa belə, ABŞ Konqresinin Nümayəndələr Palatasının sədri Pelosinin Ermənistana səfəri İrəvan üçün strateji baxımdan heç nəyi dəyişmir. Bu, sırf simvolik jestdir və bu, ilk növbədə ABŞ-dakı daxili siyasi vəziyyətlə bağlıdır. Qarşıdan gələn seçkilər ərəfəsində demokratlara hakimiyyəti əldə saxlamaq lazımdır, onlara erməni seçicilərin səsi lazımdır. Çox güman ki, onlar Ermənistana kömək etmək və regiondakı vəziyyətə hansısa formada təsir göstərməkdənsə, öz maraqlarını rəhbər tuturlar.

Bundan başqa, ABŞ-ın siyasi dəstəyi Ermənistanın Azərbaycanla danışıqlar prosesində mövqeyini möhkəmləndirməsinə kömək etməyəcək və üstəlik, təhlükəsizliyini gücləndirməyə imkan verməyəcək. Deməli, istənilən halda Ermənistan Azərbaycanla danışıqlar masasına oturmalı olacaq.

ABŞ və Qərb Rusiyanın hazırda Ukrayna istiqamətində məşğul olmasından istifadə edərək, regionda mövcudluğunu genişləndirmək üçün bəzi üsulları sınaqdan keçirməyə və Moskvaya yaxın ölkələrlə işləməyə çalışır. Amma bu heç də o demək deyil ki, həmin bu Qərb regionun problemlərini həll edə biləcək. Təcrübə göstərir ki, əsas platformanın Moskvadan Brüsselə dəyişdirilməsi heç bir halda Ermənistana öz mövqelərini möhkəmləndirməyə kömək etmədi. İndi İrəvanda ABŞ-a böyük stavka edirlər, lakin bunun Ermənistan üçün effektiv olub-olmayacağı çox şübhəlidir.

Ermənistanın KTMT-dən çıxmasına və xarici siyasət oriyentasiyasının dəyişməsinə gəlincə, hesab edirəm ki, bu, kifayət qədər ritorik



sualdır. Hətta mən inanıram ki, anti-Rusiya şüarlarına və KTMT-dən çıxmaq üçün yüksək səslə çağırışlara baxmayaraq, Ermənistanın başqa alternativi yoxdur. Reallıqda Ermənistanın hərbi bloka qarşı hansı iddiası olsa da, KTMT-dən çıxması qeyri-mümkündür. Bu, xarici siyasət üçün çox vacib məsələdir.

***- Moskva Ermənistanın xarici siyasətinə ciddi təsir mexanizmlərindən istifadə edirmi?***

- Rusiya ilə Ermənistan arasında balanssız münasibətləri nəzərə alsaq, kifayət qədər təsir alətləri var. Digər tərəfdən, indiki geosiyasi vəziyyət elədir ki, Rusiya xarici siyasətinin əsas diqqəti hazırda başqa problemlər üzərində cəmləşdiyindən Rusiya bütün bu alətlərdən istifadə etməyə hazır deyil. Qafqaz məsələsi indi tam olaraq periferik deyil, Ukrayna məsələsi ilə müqayisədə yenə də ikinci dərəcəli əhəmiyyət kəsb edir.

***- Gümrüdəki Rusiya hərbi bazasının Ermənistanı tərk etməsinə ehtimal verirsinizmi?***

- Hesab edirəm ki, bu, çox radikal addım olardı və Ermənistanın bu addımı atacağı ehtimalı yoxdur.

***- Rusiya baş nazirinin müavini Aleksey Overçukun Ermənistanla Azərbaycan arasında sülh sənədinin imzalanmasının zəruriliyi ilə bağlı son bəyanatını necə şərh edərdiniz?***

- Aleksey Overçuk Rusiyanın ən təsirli yüksək rütbəli məmurlarından biridir, o da Qafqaz istiqaməti ilə məşğuldur. Məhz o, hökumətlərarası komissiyaya nəzarət edirdi və onun komandası Azərbaycanla ticarət-iqtisadi və siyasi əməkdaşlıq sahəsində işləyirdi. İnanıram ki, belə yüksək səviyyəli məmur boş yerə belə məzmunlu açıqlamalar verməz.

Bu, yenə də Azərbaycan və Ermənistan tərəfdaşlarının Rusiyanın vasitəçiliyi ilə ənənəvi və başa düşülən dialoq formatına qayıtmağa çağırışıdır. Aydın məsələdir ki, Ermənistanın danışıqların yerini dəyişmək cəhdi heç bir şəkildə onların effektivliyinə təsir göstərmir ki, bu da Qərbin regionun reallıqları və mövcud xüsusiyyətləri barədə dərk



etmədiyinə işarə edir.

***- Ermənistandakı etiraz bazasının səviyyəsini və Paşinyan sülh müqaviləsini imzalayacağı təqdirdə ona qarşı potensial təhlükələri necə qiymətləndirirsiniz?***

- Hələ ki, Paşinyan 2020-ci ilin noyabrında hakimiyyətinin saxlanmayacağının göründüyü atəşkəs bəyanatını imzaladıqdan sonra belə Ermənistandakı elektoratına güvənmək imkanı tapa bilib. Gördüyünüz kimi, o, hələ də uğur qazanıb, çünki daxili siyasi elektoratla işləməkdə arqumentlər tapa bilib. Ermənistanın ondan məyus olduğu, 2018-ci ilin aprelində əldə etdiyi dəstək bazasının getdikcə azaldığı bir şəraitdə bu dəfə də bu nüans ona kömək edəcəkmi, bunu yaşayıb görəcəyik. Ermənistanda seçkilər tezliklə keçirilməyəcək və burada onun üçün əsas məsələ Ermənistanın özündə olan neqativ məqamları geri qaytarmaqdır. Ona görə də Paşinyan Qərb dövlətləri ilə işləyərək beynəlxalq aləmdə uğurlu danışıqlar və dəstək görüntüsü yaratmağa çalışır.

***- ABŞ Ermənistana silah verəcəkmi və Azərbaycanla sərhəddə yeni müharibə ehtimalı necədir?***

- Amerika silahlarının Ermənistana veriləcəyinə şübhə edirəm, bu, çox həssas məsələdir. Burada Türkiyənin NATO üzvü və Azərbaycanın müttəfiqi kimi mövqeyini nəzərə almamaq olmaz. Nəzəri olaraq belə bir ssenaridə hətta Amerika silahlarından Türkiyəyə qarşı istifadə etmək mümkündür ki, bu da əslində kifayət qədər fantastik görünür.

***- Ermənistan-Azərbaycan münasibətlərinin gələcək inkişafı ilə bağlı proqnozunuz varmı?***

- Sərhəddə eskalasiyaya qədər danışıqların dinamikası kifayət qədər yaxşı idi, ən azı müəyyən irəliləyiş var idi. Amma görürük ki, gərginləşmə çox şeyin üstündən keçdi, çox adam öldü, hər iki tərəf üçün həssas zərbə oldu. Məncə, yaxın gələcəkdə tərəflər arasında münasibətlərdə ciddi irəliləyiş gözləmək lazım deyil. Ermənistan üçün strateji vəziyyət ağırdır. Müvafiq olaraq, hakimiyyətdə kimin-Paşinyan və ya başqasının olmasından asılı olmayaraq, Azərbaycanla danışıqlar prosesinin başa çatdırılması məsələsini hansısa yolla həll etmək lazım gələcək.

Hələlik Rusiya sülhməramlıları Qarabağın etnik erməni əhalisinin təhlükəsizliyinin təminatçısı kimi çıxış edirlər, lakin onların ilk beşillik mandatı 2025-ci ilin noyabrında uzadılma imkanı ilə başa çatır. Azərbaycanın bu uzantıya dəstək verməyəcəyi riski var və müvafiq olaraq, bu varianta indidən hazırlaşmaq lazımdır. Sərhəd problemi də qalır. Ermənistan delimitasiya




prosesinə başlamalıdır. Azərbaycan üçün Naxçıvanla nəqliyyat əlaqələrinin açılması prinsipial əhəmiyyət kəsb edir. Bu, İkinci Qarabağ müharibəsi nəticəsində əldə edilmiş razılaşmaların bir hissəsidir. Buna görə də Ermənistan rəhbərliyi öz üzərinə müəyyən öhdəliklər götürüb. Ona görə də indi Azərbaycanın bəzən sərt mövqeyi daha çox onunla bağlıdır ki, danışıqlar prosesi dalana dirənib, əvvəllər qəbul edilmiş razılaşmalar icra olunmur.

***Tərcümə - Elçin Bayramlı***

ANALİZ

SON SƏHİFƏ

# Səs

30 sentyabr
2022-ci il

## BİLİRSİNİZMİ?

Sehirli söz olan Abrakadabra ilk olaraq o vaxt insanların temperaturunu düşürmək üçün istifadə olunub.

***

Uran planeti adi gözlə görünən yeganə planetdir.

***

Zebralar ağ üzərində qara xəttlərdir.

***

Zürafələr üzə bilməzlər, üzsələr belə boğularlar.

***

Günəş dünyadan 330,330 dəfə böyükdür.

***

Hawaii əlifbasında sadəcə 12 hərf var.

***

Norveçin şimalanda 14 həftə gecə- gündüz günəşli keçir.



## Anası Ronaldonu bu klubda görmək istəyir

"Mançester Yunayted"in hücumçusu Kriştiano Ronaldonun anası Mariya Dolores Aveyru oğlunun "Sportinq"ə (Lissabon) mümkün qayıdışından danışıb. Qol.az xəbər verir ki, o, "Nova Genta"ya açıqlamasında deyib: "Bu, baş verə bilər, amma indi deyil. Bu il bunun üçün deyildi, amma gələn il ola bilər. Ronaldoya dedim: "Oğlum, ölməmişdən əvvəl səni yenidən "Sportinq" forması ilə görmək istəyirəm".

Ronaldo gəlməsə, oğlu Kriştiano gələcək. Bu, onun taleyidir. Nəvəm yaşına görə atasından daha yaxşı oynayır. O, artıq Lissabonda yaşamaq və "Sportinq"də oynamaq istədiyini söylədi. Hər ikisi bu klubda oynasaydılar, arzum reallaşardı".

## Bəzi qazsız sulardan niyə qəribə dad gəlir?

***Bakının marketlərində satılan bəzi qazsız su məhsullarından qəribə qoxu və dad gəlir. Mənşəyi bəlli olmayan sulardan istifadə etmək isə sağlamlığımıza ziyandır. Bəs görəsən, bu suların tərkibi nədir? Nəyə görə bu kimi məhsullar hələ də satışdadır?***

Məsələ ilə bağlı SİA-ya açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirib ki, vaxtı keçmiş təhlükəli malların məhvetmə proseduru həddindən artıq primitivdir: "Ölkədə istehlakçı hüququnu qoruyan qanunlar kompleksi çox zəifdir. İstehlakçı hüquqlarını qoruyan qanun 1995-ci ildə qəbul olunub və istehlakçının zərərinə olmaqla 7 dəfə dəyişiklik edilib. Qida Təhlükəsiz Agentliyindən biz çox şey gözləyirdik. Düşünürdük ki, malların məhvetmə proseduru bu alqoritmdən çıxarılacaqdır.

**Mənfur alqoritm nədir?**



İstifadə vaxtı keçmiş mallar satışdan çıxarılır və distribütora qaytarılır, o isə malı istehsalçı şirkətə gətirib qaytarır. İstehsalçı şirkət onun etiketini dəyişir, bir qabdan o biri qaba dəyişdirir və yenidən istehlakçılara göndərir. Azad İstehlakçılar Birliyi daim qeyd edib ki, elə iş aparmaq lazımdır ki, vaxtı keçmiş mallar birbaşa tullantı kimi zibilliyə atılsın. AİB, AQTA və istehsalçı şirkətin təşəbbüsü ilə 1 ay ərzində 100 tondan çox süd və süd məhsulları məhv edildi. Bu proses davam etdirilməlidir. Yeni istehsal olunmuş məhsullar, o cümlədən sular elə bir şəraitdə saxlanılır ki, məhsul qısa bir müddətdə ziyan olur. AQTA-nın əsasnaməsində bir mənalı şəkildə göstərilib ki, bütün qida məhsulları istehlakçı masasına çatana qədər soyuq zəncir prinsipi üzrə hərəkət etməlidir. Amma təəssüflər ki, buna əməl olunmur.

Daşınmada, saxlanma şəraitində ciddi problemlər var. Bu cür suların dükanlarda peyda olunmasının səbəbi saxlanma şəraitidir. Suyun vaxtı keçməsə də, dadında fərqlilik hiss olunur. Bu da onun saxlanma şəraitindən irəli gəlir. Digər bir məsələ ilə onların doldurması ilə bağlıdır. Birbaşa təbii bulaqlardan və ya hansısa su hövzələrindən yığılıb satılırlar. Təmizlənməmiş su qısa müddətdə xarab olur və pis qoxu verir.

Su təbiətin möcüzəsidir. Su istehsalçıları birbaşa krantdan doldurulmuş suyu istehlakçılara təqdim edir. Onlar suyun ilahiliyindən sui-istifadə edir və heç kəs bununla bağlı araşdırma aparmırlar. Bundan istifadə edən filter şirkətləri insanları aldadırlar. Belə bir vəziyyət olduğu təqdirdə, biz marketlərdə qoxulu sulara rast gələ bilərik. Lakin bu suların satışına ciddi nəzarət olunmalıdır. Mətbuatda belə yazılar olduğu təqdirdə onunla bağlı araşdırmalar aparılmalıdır".

***Abutel İlhamqızı***

## Bakı sakini küçədə əmisini qətlə yetirib

Bakıda küçədə 50 yaşlı Valeh Qədəşov qətlə yetirilib. Bu barədə SİA-ya Xəzər Rayon Prokurorluğundan məlumat verilib. Bildirilib ki, prokurorluq və polis əməkdaşları tərəfindən peşəkarlıqla həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində paytaxtın Xəzər rayonu ərazisində qeyri-aşkar şəraitdə törədilən ağır cinayətin "isti izlər"lə açılması təmin edilib.

Belə ki, sentyabrın 29-u saat 03:00 radələrində rayonun Buzovna qəsəbə sakini, 1972-ci il təvəllüdlü Valeh Qədəşovun üzərində xəsarət izi olan meyitinin yaşadığı evdən 30-40 metr uzaq məsafədə küçədə aşkar edilməsi barədə rayon prokurorluğuna məlumat daxil olub. Aparılan araşdırmalarla zərərçəkmişin qardaşı oğlu, 1989-cu il təvəllüdlü Şahin Qədəşovun şəxsi münasibətlər zəminində aralarında yaranan mübahisə zamanı bıçaqla xəsarət yetirərək Valeh Qədəşovu qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.



Faktla bağlı Xəzər Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (Qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanılıb. Şahin Qədəşov şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib. İstintaq tədbirləri davam edir.

## Əncir ürək-damar sistemini möhkəmləndirir

**Müxtəlif vitamin və mikroelementlərlə zəngin olan əncirin qəbulu ürək-damar pozuntularının profilaktikası ilə bağlıdır. Əncir, xüsusən də daha kalorili olmasına baxmayaraq, qurudulmuş halda bir çox baxımdan sağlamlıq üçün faydalıdır. Ənciri qurudulmuş halda yedikdə onun tərkibində olan müxtəlif vitamin və mikroelementlərin, şəkər və kalorinin qatılığı təqribən 5 dəfə artır.**



Əncirin tərkibində olan yüksək miqdarda mis həyati əhəmiyyətli proseslərdə, o cümlədən metabolizmin normallaşdırılmasında, eritrositlərin və neyroeritrositlərin əmələ gəlməsində mühüm rol oynayır. Bununla yanaşı, əncir zülalların parçalanmasında, əsəb sisteminin və koqnitiv funksiyaların möhkəmlənməsində, erkən qocalmanın qarşısının alınmasında böyük rol oynayan B6 vitamini ilə zəngindir. Tədqiqatın müəllifləri hesab edirlər ki, əncirdən müntəzəm istifadə etməklə ürək-damar sistemini möhkəmlətmək mümkündür.

Müəyyən edilib ki, əncirdən istifadə arteriyaların boşluğunu dolduran və ürəyin işemik xəstəliyi, infarkt riskini artıran aşağı sıxlıqlı "pis" lipoprotein-xolesterininin miqdarının azaldılmasına kömək olur. Bu meyvə damar divarlarını yaxşılaşdıran K vitamini ilə zəngin olduğundan, həm də tromblardan müdafiə edir.

Bununla bərabər, mütəxəssislər əncirdən rasionda ehtiyatla istifadə etməyi məsləhət görürlər. Belə ki, əncirin tərkibində təbii şəkərin yüksək qatılığı səbəbindən o, təkcə qanda qlükozanın enib-qalxmasına deyil, həm də allergiyaya səbəb ola bilər.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**